RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 135 (10155) 31 iyul 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Nüfuz artır, mövqe möhkəmlənir



## Prezident İlham Əliyev Qırğızıstanda dövlət səfərindədir

### Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Qırğız Respublikasına dövlət səfərinə gedib. AZƏRTAC xəbər verir ki, Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova qarşıladılar.

2

## Rəqəmsal dünyanın yeni qaydalarında medianın rolu necə dəyişir



Süni intellekt ilə media sektoru arasındakı iqtisadi münasibətləri təhlil edərkən prosesin iki əsas mərhələdən ibarət olduğunu görürük - zəngin xəbər arxivlərinin böyük dil modellərinin təlimində istifadə edilməsi və ən son, yeni xəbərlərdən yararlanaraq istifadəçiyə anlıq cavabların istehsal olunması. Bu prosesdə nəşriyyatçılar və media mənsubları "ikiqat itki" ilə üz-üzə qalırlar. Əvvəlcə onların illərlə topladığı zəngin arxivlər, analitik yazılar və xəbər bazası süni intellekt sistemlərini "ağıllandırmaq" üçün təmənnasız şəkildə istifadə olunur. Sonra həmin ağıllı sistemlər formalaşdıqdan sonra oxucunu xəbərin yarandığı sayta buraxmır. Yəni media qurumu öz intellektual mülkiyyətinin maddi qarşılığını ala bilmədiyi kimi, üstəlik, öz daimi oxucu auditoriyasını da itirir.

Təbiidir ki, bu iqtisadi mənzərə qlobal miqyasda böyük hüquqi mübarizələrə yol açır. Dünyanın aparıcı media nəhəngləri artıq öz haqqını məhkəmə zallarında tələb edirlər. Məsələn, "The New York Times" kimi nüfuzlu nəşriyyatlar "OpenAI" və "Microsoft" kimi texnologiya nəhənglərini məhkəməyə verərək müəllif hüquqlarının kobud şəkildə pozulduğunu bildirirlər. Cari ilin iyulunda nəşriyyatçıların tələbləri rəsmi məhkəmə sənədlərində aydın şəkildə göstərildi. Media qurumları bildirirlər ki, texnologiya şirkətləri onların əməyi sayəsində milyardlarla dollar qazanırlar. "OpenAI" şirkəti isə istifadəçi gizliliyini qoruduğunu və məlumatlardan qaydalara uyğun istifadə etdiyini deyir.

6

## Biz tarixi köklərə və xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş münasibətlərinə xüsusi əhəmiyyət veririk

### Mərakeşin Kralı əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz Qardaşım!

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz tarixi köklərə və xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş münasibətlərinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

## Azərbaycan-Qırğızıstan münasibətləri dostluğun nümunəsidir



Son illərdə Azərbaycan və Qırğızıstan əlaqələrində də yüksək dinamika müşahidə olunur. İyulun 30-dan avqustun 1-nədək Qırğızıstanın evsahibliyi ilə ilk dəfə keçirilən "Mərkəzi Asiya-Azərbaycan" Sammiti də ikitərəfli və çoxşaxəli əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən müstəsna platforma rolunu oynayacaq. Bu Zirvə görüşü Azərbaycanın Mərkəzi Asiya regionu ilə sıx inteqrasiyasının, qarşılıqlı faydalar verən tərəfdaşlığının və formalaşan yeni Avrasiya geoiqtisadi reallığının növbəti təzahürüdür.

Bakı və Bişkek əlaqələri qarşılıqlı hörmətə, etimada və strateji tərəfdaşlığa əsaslanan, gələcəyə hesablanmış əməkdaşlıq modelidir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində bu əlaqələr siyasi dialoqdan iqtisadi əməkdaşlığa, parlament diplomatiyasından humanitar münasibətlərə qədər bütün istiqamətlər üzrə davamlı inkişaf edir.

6

## Azərbaycan bu gün həm də idman sahəsində öndədir

### 1997-ci il iyulun 31-də İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçilmişdir



Azərbaycanın müasir tarixində də belə taleyüklü qərarlardan biri 1997-ci il iyulun 31-də Azərbaycan Milli Olimpiya Komitəsinin Baş Məclisinin qəbul etdiyi qərardır. Həmin gün İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi ölkədə Olimpiya hərəkatının və ümumilikdə idmanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Sonrakı illər göstərdi ki, bu, sadəcə, rəhbər dəyişikliyi yox, Azərbaycan idmanının inkişaf fəlsəfəsini yeniləyən, müasir idarəetmə modelini formalaşdıran və ölkəmizi dünyanın idman dövlətlərindən birinə çevirən strateji qərar idi.

Bu tarixi qərarın əhəmiyyətini dəyərləndirmək üçün əvvəlcə həmin dövrədək Azərbaycan idmanının keçdiyi yola nəzər salmaq lazımdır. XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan eyni vaxtda siyasi, iqtisadi və hərbi baxımdan son dərəcə mürəkkəb mərhələ yaşayırdı. Ermənistanın hərbi təcavüzü, torpaqlarımızın işğalı, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, iqtisadi tənəzzül ölkənin bütün sahələri kimi, idman sisteminə də ciddi zərbə vurmuşdu.

7

## Dövlət proqramı aqrar təhsil qarşısında yeni vəzifələr qoyur



Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş son müşavirədə səsləndirdiyi fikirlər də bu strateji baxışı aydın şəkildə ortaya qoyur. Dövlət başçısı qeyd edib ki, bu gün dünyada baş verən geosiyasi proseslər, iqlim dəyişiklikləri və qlobal ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik hər bir dövləti ərzaq təhlükəsizliyi məsələsinə xüsusi həssaslıqla yanaşmağa vadar edir. Bu baxımdan kənd təsərrüfatının inkişafı təkcə iqtisadi məsələ deyil, həm də milli təhlükəsizlik məsələsidir.

Prezident müşavirədə xüsusi vurğulayıb ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməli və konkret addımlar atmalıdır. Bu çağırış yalnız istehsal həcmlərinin artırılmasını deyil, eyni zamanda müasir düşüncəyə malik, innovativ yanaşmaları tətbiq edə bilən yüksəkixtisaslı aqrar mütəxəssislərin hazırlanmasını da zəruri edir. Məhz buna görə dövlət proqramının icrasında ali təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür.

8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Nüfuz artır, mövqe möhkəmlənir

## Prezident İlham Əliyev Qırğızıstan, Özbəkistan və Tacikistan prezidentləri ilə birlikdə Çolpon-Ata şəhərində Qolf Klubun açılışında iştirak edib

**İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birlikdə Çolpon-Ata şəhərindəki "Issyk-Kul Golf Resort" kompleksində Qolf Klubun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə "Issyk-Kul Golf Resort" kompleksi və Qolf Klub barədə videoçarx nümayiş olundu.

Qolf Klub İssık-Kul gölünün sahilində "Issyk-Kul Golf Resort" çoxfunksiyalı turizm kompleksinin ərazisində yerləşir. Bu kompleksin ümumi sahəsi 120 hektardır. Bunun da 103 hektarı Qolf Klubun payına düşür.

Bu layihənin icrası yalnız yay aylarında deyil, digər fəsillərdə də İssık-Kula turist axınını cəlb etmək üçün böyük rol oynayacaq. Belə ki, burada ilin 10 ayında qolf oynamaq üçün meydança qurulub. Zəruri infrastrukturun yaradıldığı Qolf Klubun ərazisində 80 yerlik mehmanxana da qonaqların ixtiyarına veriləcək. Burada qolf akademiyasının yaradılması və müxtəlif səviyyəli qolf turnirlərinin keçirilməsi nəzərdə tutulur.

Turizm, idman, sağlamlıq və əyləncə meyarlarını özündə birləşdirən "Issyk-Kul Golf Resort" kompleksində Qolf Klubla yanaşı, ümumilikdə dörd və beşulduzlu bir neçə hotel, restoranlar, çimərlik sahələri olacaq.

Qırğızıstan Qolf Federasiyasının prezidenti Xomeni Erqeşov çıxış edərək dövlət başçılarını salamladı.

Sonra Qırğızıstan Prezidenti Sadır Japarov çıxış etdi.

Daha sonra dövlət başçıları "Issyk-Kul Golf Resort" kompleksinin ərazisini gəzdilər, burada qolf oyununun rəmzi başlama mərasimində iştirak etdilər.














## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 15-ci, 17-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19, № 3, maddə 211; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 386-VIIQD və 387-VIIQD nömrəli, 27 aprel tarixli 395-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 73-2.2-ci maddədə "bir misli" sözləri "əlli faizi" sözləri ilə əvəz edilsin;

1.2. 193.1-ci maddənin dispozisiyasına "yəni" sözündən sonra "qanunsuz olaraq" sözləri əlavə edilsin və həmin maddənin dispozisiyasında "müəssisə və ya digər hüquqi şəxsin yaradılması xeyli miqdarda ziyan vurduqda habelə" sözləri "hüquqi şəxsin yaradılması, hüquqi şəxs yaratmadan fiziki şəxs kimi vergi uçotuna alınması, habelə qeyd edilən məqsəd və niyyətlə hüquqi şəxsin və ya vergi uçotuna alınmış fiziki şəxsin fəaliyyətinin faktiki idarə edilməsi xeyli miqdarda ziyan vurduqda və ya" sözləri ilə əvəz edilsin;

1.3. 208-ci maddə ləğv edilsin;

1.4. 244-1-ci maddə üzrə:

1.4.1. 244-1.2-ci maddə üzrə:

1.4.1.1. 244-1.2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"244-1.2.2. virtual formada, o cümlədən internet şəbəkəsindən, mobil rabitə şəbəkəsindən, sosial şəbəkə platformalarından, digər elektron rabitə vasitələrindən, habelə internet və mobil telekommunikasiya tətbiqlərindən və ya digər texnologiyalara əsaslanan platformalardan istifadə edilməklə törədildikdə;";

1.4.1.2. sanksiya aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində əldə edilmiş gəlirin iki mislinədək miqdarda cərimə edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.4.2. 244-1.3-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.4.3. 244-1.4-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011; 2026, № 3, maddə 211, № 4, maddə 294; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunu) 215.3.1-ci və 467-13.1-ci maddələrindən "208," rəqəmləri çıxarılsın.

**Maddə 3.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18, № 7, maddə 769; 2025, № 7, maddə 626; 2026, № 1, maddə 17; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunu) 13-3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 13-3.1-ci maddənin birinci cümləsinə "orqanı" sözündən sonra "bu Qanunun 13-2.3.5-13-2.3.9-cu və 13-2.3.10-1-ci maddələrində göstərilən informasiyalar istisna olmaqla" sözləri əlavə edilsin;

3.2. 13-3.3-cü maddəyə "hallarda" sözündən sonra ", habelə bu Qanunun 13-2.3.5-13-2.3.9-cu və 13-2.3.10-1-ci maddələrində göstərilən informasiyaların yerləşdirilməsi hallarında" sözləri əlavə edilsin.

**Maddə 4.** Bu Qanunun 1.3-cü və 2-ci maddələri 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 442-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 442-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41, № 3, maddə 237; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 661 nömrəli və 8 may tarixli 663 nömrəli fərmanları) 4-cü hissəsindən "208-ci (Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama)," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. yayılması qadağan edilən informasiyanın süni intellekt texnologiyaları və digər texniki vasitələrin köməyi ilə avtomatik aşkarlanmasını və internet informasiya ehtiyatlarında yerləşdirilməsinin qarşısının alınmasını təmin etmək məqsədilə "Yayılması qadağan edilən informasiyaya nəzarət" informasiya sisteminin yaradılması barədə təkliflərini yeddi ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 442-VIIQD nömrəli Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yayılması qadağan edilən informasiyanın süni intellekt texnologiyaları və digər texniki vasitələrin köməyi ilə avtomatik aşkarlanması və internet informasiya ehtiyatlarında yerləşdirilməsinin qarşısının alınması üçün tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Yayılması qadağan edilən informasiyaya nəzarət" informasiya sisteminin yaradılması, aparılması və saxlanması xərclərinin, həmçinin bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan tapşırığın icrasının maliyyələşdirilməsi məsələlərinin həll edilməsi üçün müvafiq tədbirlər görsün.

5. Bu Fərmanın 1-ci hissəsi 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2026-cı il*

## "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 2, maddə 119) 3.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3.2-ci yarımbəndə "sədrinin" sözündən sonra "və digər üzvlərinin" sözləri əlavə edilsin.

2. 3.3.3-cü yarımbənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2026-cı il*

## "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 169 (Cild I); 2024, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddələr 541, 546) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.7-2-ci və 2.26-cı bəndlərdə "Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "Regional Su Meliorasiya" və "İri Şəhərlərin Su Təchizatı" qapalı səhmdar cəmiyyətləri" sözləri ilə əvəz edilsin;

1.2. 2.25-ci bənddə "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddələr 1018, 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123, 125; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli 689 nömrəli və 25 iyun tarixli 697 nömrəli fərmanları) 1.38-ci bəndində "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

3. "ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 851 (Cild I); 2024, № 8, maddə 937; 2025, № 6, maddə 541) 3-cü hissəsinin birinci abzasında "tabeliyindəki Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "tabeliyində olan "Regional Su Meliorasiya" və "İri Şəhərlərin Su Təchizatı" qapalı səhmdar cəmiyyətləri" sözləri ilə əvəz edilsin.

4. "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 fevral tarixli 1243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 187 (Cild I); 2025, № 6, maddə 541) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bənddə "tabeliyindəki Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "tabeliyində olan "Regional Su Meliorasiya" və "İri Şəhərlərin Su Təchizatı" qapalı səhmdar cəmiyyətləri" sözləri ilə əvəz edilsin;

4.2. 3.2-ci bənddə "tabeliyindəki Regional Su Meliorasiya Xidmətinə və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinə" sözləri "tabeliyində olan "Regional Su Meliorasiya" və "İri Şəhərlərin Su Təchizatı" qapalı səhmdar cəmiyyətlərinə" sözləri ilə əvəz edilsin.

5. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 7, maddə 658, № 9, maddə 817, № 11, maddə 1018, № 12 (I kitab), maddə 1151; 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 673 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 29.15-ci və 29.23-cü bəndləri ləğv edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" üzrə:

5.2.1. aşağıdakı məzmunda 27-1-ci hissə əlavə edilsin:

"27-1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi üzrə:

27-1.1.Aparat rəhbərinin müavini, sədrin köməkçiləri, müşavirləri, şöbə müdirləri;

27-1.2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri və onun müavinləri;

27-1.3. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin icraçı direktoru və onun müavinləri;

27-1.4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan"İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin icraçı direktoru və onun müavinləri.";

5.2.2. 59-cu və 67-ci hissələr ləğv edilsin;

5.2.3. 106-cı hissəyə "Dövlət Xidmətinin," sözlərindən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin," sözləri əlavə edilsin və həmin hissədən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin," sözləri çıxarılsın;

5.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 - "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 29.7-ci və 29.12-ci bəndləri ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 98 (Cild I);2025, № 6, maddə 541; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 16-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 16.1-ci bənddə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin;

6.2. 16.2-ci bənddə "Regional Su Meliorasiya Xidmətinin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 40-2-ci hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248 (Cild I); 2025, № 6, maddə 541; 2026, № 2, maddə 128) 11-ci hissəsində "tabeliyindəki Regional Su Meliorasiya Xidməti" sözləri "tabeliyində olan "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205; 2025, № 2, maddə 129, № 4 (I kitab), maddə 343,№ 10, maddə 900) aşağıdakı dəyişikliklər edilsin:

9.1.6-cı hissə üzrə:

9.1.1. 6.2-ci, 6.3-cü və 6.8-ci bəndlər ləğv edilsin;

9.1.2. 6.9-cu bənddə "5.2-ci, 5.4-cü və 5.5-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin" sözləri "5.4-cü bəndində nəzərdə tutulan publik hüquqi şəxsin" sözləri ilə, "onların" sözü "onun" sözü ilə əvəz edilsin;

9.2. 7-ci hissənin birinci abzasında "5-ci hissəsində" sözləri "5.4-cü bəndində" sözləri ilə, "şəxslərin" sözü "şəxsin" sözü ilə əvəz edilsin;

9.3. 10.3-cü bəndindən ", habelə bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin" sözləri çıxarılsın;

9.4. 10.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri vasitəsilə yerinə yetirilən meliorasiya və irriqasiya tədbirlərinin icrası zamanı onlarla əlaqəli istifadə olunan və qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) qiymətləri (tarifləri) artırıldığı hallarda, Agentliyin tabeliyində olan "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin gəlir və xərcləri nəzərə alınmaqla, həmin tədbirlərin maliyyələşdirilməsi xərclərində müvafiq artımların nəzərə alınmasını təmin etsin.";

9.5. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.5.1. 5.5.4-cü yarımbəndə "müəyyən" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

9.5.2. 5.5.5-ci yarımbəndə "Agentliyin" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

10. Bu Fərmanın 5.1-ci bəndi, 5.2.1-ci ("Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 27-1.1-ci və 27-1.2-ci bəndlərinə münasibətdə), 5.2.2-ci, 5.2.3-cü yarımbəndləri və 5.3-cü bəndi istisna olmaqla, bu Fərman "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulmuş qapalı səhmdar cəmiyyətləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqları gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2026-cı il*

## K.A.Kərimovun yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 246** **Bakı şəhəri, 30 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, kosmonavtikanın inkişaf etdirilməsində xüsusi xidmətlər göstərmiş görkəmli alim və hərbi xadim, general-leytenant Kərim Abbasəli oğlu Kərimovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Kərim Abbasəli oğlu Kərimovun Bakı şəhərində yaşadığı binaya (Zərgərpalan küçəsi, 16) xatirə lövhəsinin vurulmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş nazir Əli Əsədov Gürcüstanın baş prokuroru ilə görüşüb





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 30-da Gürcüstanın baş prokuroru Giorgi Qvarakidze ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı etimada və mehriban qonşuluq prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub. Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanları arasında da səmərəli əməkdaşlığın möhkəmlənməsindən məmnunluq ifadə edilib.

Transsərhəd cinayətkarlıq, kibercinayətkarlıq və digər müasir çağırışlara qarşı birgə mübarizənin gücləndirilməsinin əhəmiyyəti qeyd olunub, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə təcrübə və məlumat mübadiləsinin davam etdirilməsinin əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edəcəyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın prokurorluq orqanları arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə Azərbaycanın baş prokuroru Kamran Əliyev də iştirak edib.

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 446 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 243**

**Bakı şəhəri, 29 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyul tarixli 446 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954 (Cild I); 2024, № 3, maddə 294, № 4, maddə 438; 2025, № 2, maddə 196) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "İnzibati xəta haqqında Protokol" sözləri "Nömrələnmiş blankda tərtib edilmiş İnzibati xəta haqqında Protokol" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci və 3-cü hissələrdən "və bu qaydaların pozulması ilə əlaqədar digər" sözləri çıxarılsın;

1.3. 2-1-ci hissədə "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, işsizlikdən və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar tərtib edilən inzibati xəta haqqında Elektron Protokol" sözləri "Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilən inzibati xəta haqqında Elektron Protokol" sözləri ilə əvəz edilsin;

1.4. 3-1-ci hissədə "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, işsizlikdən və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar" sözləri "Dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"sözləri ilə əvəz edilsin;

1.5. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İnzibati xəta haqqında Protokol" yeni redaksiyada verilsin (əlavə olunur);

1.6. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan və bu qaydaların pozulması ilə əlaqədar digər inzibati xətalarla bağlı tərtib edilən İnzibati xəta haqqında Protokol" yeni redaksiyada verilsin *(əlavə olunur)*;

1.7. həmin Qərarla təsdiq edilmiş 2-1 nömrəli əlavə - "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, işsizlikdən və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar tərtib edilən inzibati xəta haqqında Elektron Protokol" yeni redaksiyada verilsin (əlavə olunur);

1.8. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan və bu qaydaların pozulması ilə əlaqədar digər inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"da aşağıdakı dəyişikliklər edilsin:

1.8.1. adından "və bu qaydaların pozulması ilə əlaqədar digər" sözləri çıxarılsın;

1.8.2. mətni üzrə:

1. "yalnız bank, poçt, plastik kart və ya internet, o cümlədən "ASAN ödəniş" informasiya sistemi" sözləri "ödəniş kartı və digər ödəmə alətləri" sözləri ilə əvəz edilsin;

2. "və ya məhkəməyə" sözləri "və məhkəməyə" sözləri ilə əvəz edilsin;

3. "dərhal və ya" sözləri çıxarılsın və "5 iş günü" sözləri "10 gün" sözləri ilə əvəz edilsin;

1.9. həmin Qərarla təsdiq edilmiş 3-1 nömrəli əlavə - "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, işsizlikdən və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar" yeni redaksiyada verilsin *(əlavə olunur)*;

1.10. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "İnzibati tənbeh vermə haqqında Qərar"ın mətnində "57.1-57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə, "və ya məhkəməyə" sözləri "və məhkəməyə" sözləri ilə əvəz edilsin;

1.11. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında Qərar"ın mətnində "57.1-57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə, "və ya məhkəməyə" sözləri "və məhkəməyə" sözləri ilə əvəz edilsin;

1.12. həmin Qərarla təsdiq edilmiş 6 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında Qərar"ın mətnində aşağıdakı dəyişikliklər edilsin:

1.12.1. "Qərarın surəti iki gün müddətində barəsində qərar qəbul edilmiş fiziki şəxsə, hüquqi şəxsin nümayəndəsinə və zərər çəkmiş şəxsə, 48 saat ərzində isə müvafiq prokurora verilir (göndərilir)." sözləri "Qərarın surəti iki gün müddətində barəsində qərar qəbul edilmiş fiziki şəxsə, hüquqi şəxsin nümayəndəsinə və zərər çəkmiş şəxsə verilir. Qərar 48 saat ərzində səlahiyyətli orqanların informasiya sistemləri vasitəsilə, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda surəti poçt vasitəsilə müvafiq prokurora göndərilir.";

1.12.2. "57.1-57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə, "və ya məhkəməyə" sözləri "və məhkəməyə" sözləri ilə əvəz edilsin;

1.13. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında Qərar"ın mətnində "57.1-57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə, "və ya məhkəməyə" sözləri "və məhkəməyə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1502 (Cild I) ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"na 1 nömrəli əlavə - "Protokol, qərar (qərardad) blanklarının spesifikasiyası"nın 2-ci hissəsinin birinci cümləsində "İnzibati xəta haqqında protokol" sözləri "Nömrələnmiş blankda tərtib edilmiş İnzibati xəta haqqında Protokol" sözləri ilə əvəz edilsin və "və bu qaydaların pozulması ilə əlaqədar digər" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Xarici İşlər Nazirliyinin mətbuat katibi Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatını şərh edib

Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşı Martin Rayan barəsində çıxarılmış hökmə dair məhkəmə prosesini şübhə altına alan və ölkəmizə qarşı əsassız ittihamları ehtiva edən 30 iyul tarixli bəyanatını qətiyyətlə rədd edirik.

Martin Rayan barəsində cinayət işi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq araşdırılıb və təqdim edilmiş sübutlar və ona qarşı irəli sürülən ittihamlar əsasında məhkəmə qərar qəbul edib. Apellyasiya instansiyasının qərarı da Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində həyata keçirilmiş məhkəmə prosesinin nəticəsidir.

Bu baxımdan Fransa tərəfinin məhkəmə proseslərinə siyasi don geyindirməsi, Azərbaycan məhkəmələrinin fəaliyyətinə müdaxilə xarakteri daşıyan bəyanatlar verməsi, "əsassız saxlanılma" və "ədalətsiz məhkəmə araşdırması" ilə bağlı iddialar irəli sürməsi qəbuledilməzdir.

Məhkəmə prosesi zamanı təqsirləndirilən şəxsin prosessual hüquqları Azərbaycan Respublikasının qanunvericiliyi və ölkəmizin beynəlxalq öhdəliklərinə uyğun şəkildə təmin olunub. Fransa səfirliyinin konsulluq nümayəndələrinin də bütün məhkəmə iclaslarında iştirak etməsi prosesin şəffaf şəkildə həyata keçirildiyini bir daha təsdiqləyir.

Fransa tərəfini Azərbaycan Respublikasının suverenliyinə, daxili işlərinə və müstəqil məhkəmə sisteminə hörmət etməyə, habelə ikitərəfli münasibətlərə zərər vuran əsassız ittihamlardan çəkinməyə çağırırıq.

# Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiyanın Xarici İşlər İnstitutunda çıxış edib







Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 30-da Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Xarici İşlər İnstitutunda keçirilən tədbirdə iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirə Efiopiyanın dövlət və hökumət qurumlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri, beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən alim və ekspertlər, elmi ictimaiyyətin nümayəndələri və tələbələr qatılıblar.

Əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarova ilə Efiopiya Xarici İşlər İnstitutunun direktor müavini Məhəmmədrafi Abaraya arasında görüş keçirilib. Ardınca nümayəndə heyətlərinin iştirakı ilə ADA Universiteti ilə Xarici İşlər İnstitutu arasında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə "Azərbaycan və Efiopiya: Parlamentlərarası dialoqun, əməkdaşlığın və çoxtərəfliliyin inkişafı" mövzusunda çıxış edib. Spiker çıxışında Azərbaycan ilə Efiopiya arasında münasibətlərin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini bildirib. O, Efiopiya Prezidenti Taye Atske Selassiyenin və Baş nazir Abiy Əhməd Əlinin Azərbaycana səfərlərinin, onların Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdikləri görüşlərin, eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Efiopiyaya səfərinin ölkələrimiz arasında dostluq, qarşılıqlı hörmət və etimadın möhkəmlənməsinə mühüm töhfə verdiyini vurğulayıb. Spiker eyni zamanda parlamentlərarası münasibətlərin bu əlaqələrin inkişafında mühüm vasitə olduğunu bildirib.

Sahibə Qafarova çıxışında Azərbaycanın innovativ dövlət idarəçiliyi təcrübəsindən bəhs edərək, "ASAN xidmət" modelinin Efiopiyada "MESOB" Xidmət Mərkəzi vasitəsilə uğurla tətbiqini qarşılıqlı faydalı əməkdaşlığın nümunəsi kimi qiymətləndirib. O vurğulayıb ki, etimada, bilik və təcrübə mübadiləsinə əsaslanan tərəfdaşlıq birgə inkişaf və davamlı tərəqqinin əsasını təşkil edir.

Spiker bildirib ki, Azərbaycan ilə Efiopiya arasında humanitar əməkdaşlıq ikitərəfli münasibətlərin vacib istiqamətlərindən biridir. O qeyd edib ki, Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən olan ADA Universiteti rektor Hafiz Paşayevin rəhbərliyi ilə beynəlxalq akademik əlaqələrin inkişafına mühüm töhfələr verir. Bu baxımdan ADA Universiteti ilə Efiopiyanın Xarici İşlər İnstitutu arasında bu gün imzalanmış Anlaşma Memorandumunun elm və təhsil sahəsində əməkdaşlığın genişlənməsinə, eləcə də ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəyi vurğulanıb.

Milli Məclisin Sədri ölkəmizin beynəlxalq siyasətinin prioritetlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Vurğulanıb ki, Azərbaycan beynəlxalq münasibətlərdə dialoqun, həmrəyliyin və çoxtərəfliliyin möhkəmləndirilməsinə daim xüsusi önəm verir. Qlobal Cənubun nümayəndəsi kimi Azərbaycanın müxtəlif beynəlxalq platformalardakı fəaliyyəti vasitəsilə hər zaman Qlobal Cənub ölkələrinin, xüsusən də Afrika ölkələrinin maraqlarının irəli aparılmasına xüsusi diqqət yetirdiyi vurğulanıb. Qeyd edilib ki, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, hərəkatın institusional inkişafı istiqamətində irəli sürdüyü təşəbbüslər, xüsusilə COVID-19 pandemiyası dövründə üzv dövlətlərin maraqlarının müdafiəsi və inkişaf gündəliyinin dəstəklənməsi bu siyasətin mühüm təzahürləridir.

Spiker Sahibə Qafarova Azərbaycanın Afrika ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə də xüsusi önəm verdiyini bildirib.

Azərbaycan parlamentinin spikeri çıxışında beynəlxalq münasibətlərə dair də fikirlərini səsləndirib. Qeyd olunub ki, bu gün beynəlxalq sistem Birləşmiş Millətlər Təşkilatının təsis edilməsindən bəri ən dərin transformasiyalardan birini yaşayır. Onun sözlərinə görə, dünya günbəgün daha çox inteqrasiya olunsa da, siyasi cəhətdən parçalanır. Milli Məclisin Sədri münaqişələrin artdığını, humanitar böhranların daha mürəkkəb xarakter aldığını və çoxtərəfli təsisatlara olan inamın görünməmiş təzyiqlərə məruz qaldığını söyləyib. Spikerin sözlərinə görə, belə bir şəraitdə dövlətlər arasında etimadın möhkəmləndirilməsi, qarşılıqlı hörmətə əsaslanan dialoqun təşviqi və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi hər zamankından daha böyük əhəmiyyət daşıyır.

Sahibə Qafarova hazırkı mərhələdə mövcud olan çağırışların, problemlərin aradan qaldırılması üçün çoxtərəfliliyin gücləndirilməsi, beynəlxalq təsisatlar və əməkdaşlıq platformalarının fəaliyyətinin səmərəliliyinin artırılması və bu kimi bir sıra məsələlərin önəmini də konkret nümunələr əsasında diqqətə çatdırıb.

Beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının rolundan söz açan Milli Məclisin Sədri bildirib ki, parlamentlərarası dialoq dövlətlər arasında etimadın möhkəmləndirilməsi, qarşılıqlı anlaşmanın inkişafı və ümumi çağırışlara ortaq cavab verilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, güclü və ictimai etimad qazanan parlamentlər olmadan, hətta ən mükəmməl inkişaf strategiyaları belə kağız üzərində qalmaq riski daşıyır. Bu baxımdan parlamentlər arasında təcrübə mübadiləsinin və əməkdaşlığın genişləndirilməsi çoxtərəfliliyin möhkəmləndirilməsi və ümumi inkişaf məqsədlərinə nail olunması üçün böyük önəm kəsb edir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, parlament diplomatiyasının gücləndirilməsi, qarşılıqlı anlaşmanın təşviqi və çoxtərəfli əməkdaşlığın inkişafı daha sülhsevər, inklüziv və dayanıqlı gələcəyin qurulmasına xidmət edən əsas amillərdəndir.

Spiker Sahibə Qafarova çıxışında sadalanan məsələlər haqqında geniş məlumat verməklə yanaşı, müasir dünya gündəliyinin, həmçinin parlamentlərin qarşısında dayanan vəzifələrin əhatə olunduğu bir çox məsələlərə də toxunub, onlar haqqında özünün fikir və mülahizələrini diqqətə çatdırıb.

Sonra tədbir sual-cavab sessiyası ilə davam edib, Milli Məclisin Sədri auditoriyanın suallarını cavablandırıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiyaya rəsmi səfəri çərçivəsində bir sıra ölkələrin səfirləri ilə görüşüb

İyulun 30-da Milli Məclisin Sədri Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində Afrika ölkələrinin və dünyanın digər regionlarından olan dövlətlərin Əddis-Əbəbədəki səfirləri ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə çıxış edən parlamentin Sədri bildirib ki, müasir dövrdə çoxtərəfliliyin gücləndirilməsi onun yeni qlobal reallıqlara uyğunlaşdırılmasını tələb edir. Onun sözlərinə görə, parlamentlər bu prosesin əsas hərəkətverici qüvvələrindən birinə çevrilməlidir. Məhz parlamentlər vətəndaşların gözləntilərini dövlət siyasətinə çevirən, şəffaflığı, inklüzivliyi və ictimai etimadı möhkəmləndirən əsas təsisatlardır. Buna görə də təmsilçi parlamentarizm davamlı inkişafın ən möhkəm təməllərindən biri hesab olunur. Bu baxımdan parlamentlər arasında təcrübə mübadiləsinin və əməkdaşlığın genişləndirilməsi çoxtərəfliliyin möhkəmləndirilməsi və ümumi inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyət kəsb edir.

Spiker çıxışında dəyişən dünyada Afrikanın rolu, parlament diplomatiyasının əhəmiyyəti, dünyanın ən böyük beynəlxalq parlament təşkilatı olan Parlamentlərarası İttifaqın (PAİ) fəaliyyəti, onun gələcəyi, Afrika Gündəliyi - 2063 barədə fikirlərini bölüşüb.

Spiker PAİ-nin fəaliyyətindən danışaraq bildirib ki, bu təşkilat dünya parlamentlərini bir araya gətirən ən qədim çoxtərəfli siyasi platforma kimi dialoqun, demokratiyanın və parlamentlərarası əməkdaşlığın inkişafında mühüm rol oynayır. Görüşdə PAİ-nin regional parlament təşkilatları ilə əməkdaşlığının genişləndirilməsinin əhəmiyyəti, regional baxışların qlobal parlament gündəliyinə inteqrasiyası, qlobal öhdəliklərin regional səviyyədə daha səmərəli həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanın və Afrika ölkələrinin beynəlxalq parlament təşkilatlarında iştirakı, Afrikanın inkişafı və dünyada yeri, Azərbaycanın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində əldə etdiyi nailiyyətlər, Bakıda keçirilmiş COP29-un nəticələri və digər mövzularda fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında görüş keçirilib

İyulun 30-da İran İslam Respublikasının Biləsuvar şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun və İran İslam Respublikası İqtisadiyyat və Maliyyə nazirinin müavini, İran Gömrük Administrasiyasının rəhbəri Forod Asqarinin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş keçirilib.



Görüş zamanı praktiki əməkdaşlıq imkanları əsasında nəqliyyat vasitələrinin keçid məntəqələrindən sinxron buraxılması, eləcə də elektron məlumat mübadiləsinin həyata keçirilməsi, operativlik və gələcək əməkdaşlığın əlaqələndirilmiş şəkildə inkişaf etdirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb. Tranzit prosedurları, o cümlədən Azərbaycandan İran İslam Respublikasının ərazisi ilə Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə hərəkət edən yük nəqliyyat vasitələrinin sürətli keçidi məqsədilə hərəkət intensivliyinə dəstək göstərilməsi məsələləri müzakirə edilib və istiqamətlər müəyyən olunub.Tədbirin sonunda görüşün protokolu imzalanıb.

Görüşdən sonra Azərbaycan nümayəndə heyəti İran İslam Respublikasının ərazisindəki Biləsuvar gömrük postunun, İran nümayəndə heyəti isə Azərbaycan Respublikası Biləsuvar dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti ilə tanış olublar.

*"Azərbaycan"*

# Bakıda Mərakeşin milli bayramı qeyd olunub

İyulun 30-da Mərakeşin Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Taxt-tac günü münasibətilə rəsmi qəbul təşkil edib.





AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Mərakeşin Dövlət himnləri səsləndirilib.

Mərakeşin Azərbaycandakı səfiri Məhəmməd Adil Embarş çıxışında ölkəsi ilə Azərbaycan arasında dostluq münasibətlərinin ildən-ilə daha da möhkəmləndiyini bildirib. Qeyd edib ki, ölkələrimiz qarşılıqlı hörmətə, siyasi etimada, suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiqliyə əsaslanan möhkəm tərəfdaşlığı bölüşür.

Səfirin sözlərinə görə, iki ölkə arasında siyasi dialoq intensivləşib, yüksəksəviyyəli təmaslar artıb və ikitərəfli əməkdaşlıq getdikcə daha çox sahəni əhatə etməyə başlayıb: "İqtisadi və ticarət əlaqələri genişlənir, xalqlarımız arasında təmaslar isə daha da sıxlaşır".

O bildirib ki, vizasız gediş-gəliş haqqında saziş turizmə və insanlar arasında əlaqələrə yeni təkan verib, biznes, investisiya və qarşılıqlı tanışlıq üçün imkanlar yaradıb.

Mədəniyyət naziri Adil Kərimli vurğulayıb ki, ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiya əlaqələrin inkişafında xüsusi rol oynayır: "Eyni zamanda vizasız gediş-gəliş rejiminin tətbiqi, şübhəsiz ki, insanlar arasında təmasların genişlənməsinə, turizm və işgüzar əlaqələrin inkişafına mühüm töhfə verib. Sevindirici haldır ki, ötən il Mərakeşdən Azərbaycana gələn turistlərin sayında 28 faiz artım qeydə alınıb".

Nazir bildirib ki, ölkələr arasında ticarət dövriyyəsi ötən dövrlə müqayisədə 5 faiz artıb: "Cari ildən etibarən müvafiq ikitərəfli sazişə uyğun olaraq, qarşılıqlı əsasda hər iki ölkədən olan tələbələrin akademik mübadiləsi həyata keçiriləcək. Bu müsbət dinamika ölkələrimiz arasında iqtisadi-ticarət və investisiya əlaqələrinin daha da genişləndirilməsi üçün əlverişli zəmin yaradır, mövcud potensialın səmərəli reallaşdırılmasına xidmət edir".

Rəsmi qəbul çıxışlardan sonra ziyafətlə davam edib.

# "Azərbaycanın balanslaşdırılmış diplomatiyası Orta dəhlizin təhlükəsizliyinin əsas təminatlarından biridir"

"Son illərdə qlobal geosiyasi proseslərin sürətlənməsi, beynəlxalq ticarət marşrutları ətrafında artan rəqabət və təchizat zəncirlərində yaranan risklər Orta dəhlizin strateji əhəmiyyətini daha da artırıb".



Bunu AZƏRTAC-a açıqlamasında **türkiyəli siyasi ekspert Mehmet SEVEN** deyib.

Onun sözlərinə görə, Asiya ilə Avropa arasında daha qısa, təhlükəsiz və dayanıqlı nəqliyyat əlaqələri yaradan bu marşrut artıq təkcə iqtisadi layihə deyil, həm də regional təhlükəsizliyin, siyasi dialoqun və beynəlxalq əməkdaşlığın mühüm elementinə çevrilib: "Mövcud geosiyasi şəraitdə dünya ticarətinin davamlılığı alternativ və etibarlı nəqliyyat marşrutlarının inkişafından birbaşa asılıdır. Ənənəvi daşınma yollarında yaranan siyasi və hərbi risklər, eləcə də logistika sahəsində baş verən fasilələr dövlətləri yeni və təhlükəsiz marşrutlara üstünlük verməyə sövq edir. Bu baxımdan Orta dəhliz Şərqlə Qərbi birləşdirən ən perspektivli nəqliyyat-kommunikasiya xəttinə çevrilərək Avrasiya məkanında strateji mövqeyini daha da möhkəmləndirib".

Ekspert qeyd edib ki, Orta dəhlizin təhlükəsizliyinin təmin olunması yalnız tranzit ölkələrinin deyil, həm də Avropa və Asiyanın aparıcı iqtisadiyyatlarının maraqlarına cavab verir. Çünki bu marşrut yüklərin daha qısa müddətdə, daha aşağı logistika xərcləri ilə və daha təhlükəsiz şəkildə daşınmasına imkan yaradır. Bu isə beynəlxalq ticarətin genişlənməsinə, investisiyaların artmasına və iqtisadi əlaqələrin şaxələndirilməsinə şərait yaradır.

Mehmet Seven vurğulayıb ki, Azərbaycanın bu prosesdə oynadığı rol xüsusi əhəmiyyət daşıyır. Bildirilib ki, ölkə Orta dəhlizin əsas iştirakçılarından biri kimi nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Müasir limanlar, dəmir yolu xətləri, avtomobil magistralları və logistika mərkəzləri Azərbaycanın Avrasiyanın mühüm tranzit qovşaqlarından birinə çevrilməsinə imkan yaradıb.

"Azərbaycan Orta dəhlizin təhlükəsizliyinin təmin olunması məqsədilə region dövlətləri və qlobal güclər arasında həssas diplomatik tarazlığı qorumağa çalışır. Rəsmi Bakı Türkiyə ilə strateji müttəfiqlik münasibətlərini daha da inkişaf etdirməklə yanaşı, Avropa İttifaqı, ABŞ, Rusiya, İran və Ermənistanla münasibətlərdə də dialoqun davam etdirilməsinə, sabitliyin möhkəmləndirilməsinə və qarşılıqlı etimadın artırılmasına töhfə verir. Bu, maraqların toqquşduğu mürəkkəb geosiyasi mühitdə balanslaşdırılmış və praqmatik xarici siyasətin uğurlu nümunəsidir", - deyə siyasi ekspert bildirib.

Onun fikrincə, Azərbaycanın həyata keçirdiyi çoxvektorlu diplomatiya Orta dəhlizin uzunmüddətli fəaliyyətinin və təhlükəsizliyinin əsas şərtlərindən biridir: "Regionda etimad mühitinin qorunması, qarşılıqlı iqtisadi asılılığın artırılması və əməkdaşlıq platformalarının genişləndirilməsi beynəlxalq yükdaşımaların fasiləsiz həyata keçirilməsinə mühüm zəmin yaradır".

Mehmet Seven bildirib ki, Türkiyə və Azərbaycanın koordinasiyalı fəaliyyəti Orta dəhlizin inkişafında xüsusi rol oynayır. İki ölkə nəqliyyat, logistika, enerji, gömrük, rəqəmsal ticarət və infrastruktur sahələrində həyata keçirdikləri birgə layihələrlə bu marşrutun rəqabət qabiliyyətini artırır.

Ekspertin sözlərinə görə, Bakı ilə Ankaranın strateji əməkdaşlığı türk dünyasının iqtisadi inteqrasiyasını dərinləşdirməklə yanaşı, Avropa ilə Asiya arasında yeni iqtisadi körpünün formalaşmasına da mühüm töhfə verir: "Avropa ölkələrinin enerji və nəqliyyat marşrutlarını şaxələndirmək istiqamətində atdıqları addımlar Orta dəhlizə marağı daha da artırır. Bu marşrut həm enerji resurslarının, həm də qeyri-enerji yüklərinin təhlükəsiz və fasiləsiz daşınmasına xidmət etməklə beynəlxalq iqtisadi sabitliyin möhkəmlənməsinə töhfə verir. Yaxın illərdə Orta dəhliz boyunca rəqəmsal logistika sistemlərinin tətbiqi, gömrük prosedurlarının sadələşdirilməsi və yeni nəqliyyat layihələrinin reallaşdırılması marşrutun səmərəliliyini daha da yüksəldəcək. Bu isə Avrasiyada ticarət dövriyyəsinin artmasına, yeni investisiyaların cəlb olunmasına və region ölkələri arasında iqtisadi əməkdaşlığın daha da genişlənməsinə imkan yaradacaq".

Siyasi ekspert bildirib ki, Orta dəhliz artıq yalnız yükdaşımaları həyata keçirən nəqliyyat marşrutu deyil, həm də geosiyasi sabitliyi, iqtisadi inkişafı və beynəlxalq tərəfdaşlığı təşviq edən strateji platformadır: "Azərbaycanın balanslaşdırılmış xarici siyasəti, Türkiyə ilə strateji müttəfiqliyi və digər regional və qlobal aktorlarla dialoqa əsaslanan yanaşması Orta dəhlizin təhlükəsizliyinin və dayanıqlı inkişafının ən mühüm təminatlarından biridir. Bu amillər gələcəkdə də marşrutun beynəlxalq əhəmiyyətini daha da artıracaq".

# "Rəsmi Bakının Mərkəzi Asiya regionu ilə münasibətlərində yeni status formalaşır"

"Prezident İlham Əliyevin Qırğızıstanda "Mərkəzi Asiya-Azərbaycan" formatında dövlət başçılarının görüşündə iştirakı Azərbaycanın Mərkəzi Asiya ilə münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir".



Bunu AZƏRTAC-a açıqlamasında **Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri Aygün ATTAR** deyib. Fond sədri bildirib ki, "Mərkəzi Asiya-Azərbaycan" görüşü Bakının regionla münasibətlərində yeni statusun formalaşdığını nümayiş etdirir. Azərbaycan çox əmin addımlarla Mərkəzi Asiya ilə əməkdaşlıq edən tərəf mövqeyindən həmin geosiyasi məkanın qərarlarının hazırlanmasında iştirak edən strateji aktora çevrilir. Bişkekə səfər çərçivəsində Qırğızıstanla "Müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması da nəzərdə tutulub ki, bu da Azərbaycan-Qırğızıstan münasibətlərində uzunmüddətli və ardıcıl siyasi fəaliyyətin nəticəsidir.

"Azərbaycan-Qırğızıstan münasibətləri bu mərhələyə çatmaq üçün tarixin böyük sınaqlarından keçib. 2022-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə, Dövlətlərarası Şuranın yaradılması, 2024-cü ildə qəbul olunmuş dərin strateji tərəfdaşlığa dair Birgə Bəyannamə və 2024-2029-cu illəri əhatə edən əməkdaşlıq proqramı gələcək müttəfiqliyin institusional bünövrəsini formalaşdırıb. Başqa sözlə desək, əvvəlcə siyasi iradə ortaya qoyuldu, ardınca onu işlək mexanizmlərə çevirəcək strukturlar yaradıldı, indi isə münasibətlərin ən yüksək hüquqi mərhələsinə keçid hazırlanır. Sənədin tarixi çəkisi isə onun hansı icra mexanizmləri ilə təmin olunacağında görünəcək", - deyə fond sədri vurğulayıb.

A.Attar qeyd edib ki, bu prosesdə Orta dəhliz xüsusi strateji əhəmiyyət daşıyır. Orta dəhliz artıq Avrasiya boyunca iqtisadi suverenliyin və siyasi dayanıqlığın əsas xətlərindən birinə çevrilir. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Qırğızıstanı Xəzər hövzəsi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropa bazarlarına bağlaması Bişkek üçün yeni geoiqtisadi manevr imkanları yaradır. Azərbaycan isə bu əlaqədə tranzit ölkə rolu ilə kifayətlənməyərək logistikanın, investisiyanın, enerji axınlarının və rəqəmsal ticarətin koordinasiya mərkəzi statusunu gücləndirir.

Fond sədri hesab edir ki, bu səfərin Türk Dövlətləri Təşkilatı (TDT) üçün əhəmiyyəti ikitərəfli münasibətlərdən daha genişdir.

"İkitərəfli müttəfiqlik müqavilələri TDT daxilində paralel siyasi xətlərdən daha çox təşkilatın hüquqi və strateji bünövrəsini möhkəmləndirir. Türk dövlətləri arasında etimad səviyyəsi yüksəldikcə TDT sammit diplomatiyasından ortaq qərarların icra olunduğu funksional güc mərkəzinə çevrilə bilər. Türk dünyasının qarşısında tarixi inteqrasiya imkanı yaranıb. Türk dünyası tarix boyu siyasi parçalanmanın, iqtisadi əlaqəsizliyin və xarici güc mərkəzlərindən asılı kommunikasiya xətlərinin ağır nəticələrini yaşayıb. Bu gün isə qarşıda başqa imkan açılır: ortaq dil və yaddaşı ortaq bazara, ortaq nəqliyyat sisteminə, ortaq investisiya məkanına və koordinasiyalı siyasi iradəyə çevirmək. Bu inteqrasiya suverenliyin zəifləməsi anlamına gəlmir, əksinə, milli suveren imkanların birləşdirilməsi və xarici təzyiqlər qarşısında daha dayanıqlı hala gətirilməsi mənası daşıyır. Prezident İlham Əliyevin Qırğızıstana səfəri türk dövlətləri arasında yeni əməkdaşlıq modelinin konturlarını daha da aydın göstərə bilər. Bu model klassik hərbi blok məntiqindən fərqlənir. Onun mərkəzində siyasi həmrəylik, iqtisadi qarşılıqlı asılılıq, nəqliyyat bağlantısı, enerji təhlükəsizliyi, müdafiə sənayesi əməkdaşlığı, mədəni yaxınlıq və koordinasiyalı diplomatiya dayanır", - deyə o bildirib.

Aygün Attar qeyd edib ki, bu proses türk dünyasının geosiyasi xəritəsində yeni reallıq formalaşdırır. Ən mühüm məqam isə bu xəritədəki geosiyasi boşluqların tədricən azalmasıdır. Azərbaycan Qafqaz ilə Mərkəzi Asiya arasındakı körpü, Qırğızıstan Şərqi Asiyaya açılan mühüm bağlantı, Türk Dövlətləri Təşkilatı isə bu böyük coğrafiyanın siyasi koordinat sistemi kimi formalaşır. Qarşıdakı mərhələnin uğuru imzalanacaq sənədlərin praktiki nəticələri ilə müəyyən olunacaq.

# Praqada Qərbi Azərbaycan və Qarabağın tarixi-mədəni irsinə həsr olunmuş maarifləndirici aksiya keçirilib

Çexiya Respublikasının paytaxtı Praqanın Köhnə Şəhər meydanında Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi çərçivəsində Qərbi Azərbaycan və Qarabağın tarixi-mədəni irsinə həsr olunmuş maarifləndirici aksiya keçirilib.



AZƏRTAC xəbər verir ki, aksiya Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə, Azərbaycan Diasporunun Şərqi Avropa üzrə Koordinasiya Şurasının Çexiya üzrə koordinatoru, "Land of Fire" cəmiyyətinin təsisçisi Fərid Əmirəliyevin təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Qərbi Azərbaycan və Qarabağın zəngin tarixi-mədəni irsini, habelə bu ərazilərdə Azərbaycan xalqına məxsus memarlıq və mədəniyyət abidələrinin dağıdılması və məhv edilməsini əks etdirən 17 iriölçülü çap olunmuş fotoşəkil nümayiş etdirilib. Sərgidə təqdim olunan materiallar tarixi faktlara, arxiv sənədlərinə və etibarlı mənbələrə əsaslanaraq hazırlanıb. Aksiyanın əsas məqsədi Qərbi Azərbaycan və Qarabağın tarixi-mədəni irsini beynəlxalq ictimaiyyətə tanıtmaq, Azərbaycan xalqının əsrlər boyu yaratdığı maddi-mədəni irsin qorunmasının əhəmiyyətini diqqətə çatdırmaq, tarixi həqiqətləri obyektiv şəkildə təqdim etmək, eləcə də mədəni irsin qorunması sahəsində beynəlxalq ictimaiyyətin həssaslığını artırmaq olub.

Tədbirdə Azərbaycanın Çexiyadakı səfiri Yaşar Əliyev, səfirliyin əməkdaşları, Çexiyanın SPD Partiyasının üzvləri Dr. Ing. Milan Urban və Sergey Zuyev, eləcə də Çexiyada yaşayan Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Aksiyada 20-dən artıq diaspor fəalı ziyarətçilərin məlumatlandırılmasında iştirak edib. Gün ərzində Praqanın mərkəzini ziyarət edən minlərlə yerli sakin və turist sərgi ilə tanış olub, onlara nümayiş etdirilən fotoşəkillər və tarixi faktlar barədə ətraflı məlumat verilib, məlumatlandırıcı materiallar təqdim olunub.

Tədbirdə iştirak edən SPD Partiyasının üzvləri Dr. Ing. Milan Urban və Sergey Zuyev sərgi ilə yaxından tanış olduqlarını bildirərək, tarixi faktlara əsaslanan materialların ictimaiyyətə təqdim edilməsini yüksək qiymətləndiriblər. Onlar bu cür maarifləndirici tədbirlərin tarixi yaddaşın qorunmasına, mədəni irsin təbliğinə və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıblar.

Praqanın ən çox ziyarət olunan məkanlarından biri olan Köhnə Şəhər meydanında keçirilən aksiya yerli ictimaiyyət və şəhər qonaqları tərəfindən böyük maraqla qarşılanıb. Gün ərzində minlərlə insan sərgini ziyarət edərək nümayiş etdirilən tarixi faktlar və fotoşəkillərlə tanış olub.

Aksiya "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Azərbaycanın tarixi-mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması, milli-mədəni dəyərlərin təbliği və tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirilən mühüm diaspor təşəbbüslərindən biri kimi qiymətləndirilir.

# "Bir millət, iki dövlət" anlayışının gücünü və qardaşlığını birlikdə yaşayırıq"

"Türkiyənin Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən dünyanın müxtəlif ölkələrində həyata keçirilən İnkişaf Elçiləri Proqramının ilkin mərhələsinə Azərbaycandan start verilib. Türkiyədə və dünyanın müxtəlif ölkələrində ali təhsil alan gənclərimizin ilk dayanacağı təsadüfi olaraq Azərbaycan seçilməyib. Bunun əsasında tarixi və mənəvi bağlarımız dayanır. 1918-ci ildə Qafqaz İslam Ordusunun Nuru paşanın komandanlığı altında Azərbaycanı işğaldan azad etməsi qardaşlığımızın ən parlaq nümunələrindən biridir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Türkiyənin Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı koordinatoru Mahmut AĞIRMAN** söyləyib.

"Layihə iştirakçıları Azərbaycanda TİKA tərəfindən müxtəlif rayonlarda həyata keçirilən fəaliyyətlərlə yerində tanış oldular. Dializ mərkəzlərinə baş çəkdilər, universitet xəstəxanalarında həyata keçirilən layihələrlə tanış oldular, Türkiyədən olan akademik heyətlə azərbaycanlı həkimlərin birgə əməkdaşlığı barədə məlumatlar aldılar. Kənd təsərrüfatı sahəsində TİKA tərəfindən həyata keçirilən layihələr də iştirakçılar tərəfindən yerində öyrənildi. Xüsusilə arıçılıq layihələri, arı ailələrinin və pətəklərin paylanılması, arıçılıq mərkəzlərinin fəaliyyəti, həmçinin istixana təsərrüfatı, ağacəkmə və tingçilik layihələri gənclər tərəfindən əyani şəkildə izlənildi", - deyə o vurğulayıb.

Mahmut Ağırman Azərbaycan-Türkiyə münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluğunu da ifadə edib: "Mən əvvəllər də Azərbaycanda olmuşam, lakin ölkənin hər gün inkişaf etdiyini və böyüdüyünü görmək qürurvericidir. Azərbaycanın Türkiyəyə enerji, təbii qaz və digər sahələrdə verdiyi töhfələr, eləcə də qarşılıqlı bilik və təcrübə mübadiləsi davam edir. Biz "Bir millət, iki dövlət" anlayışının gücünü və qardaşlığını birlikdə yaşayırıq".

# Rəqəmsal dünyanın yeni qaydalarında medianın rolu necə dəyişir

**Son illərdə qlobal media iki böyük dəyişiklik mərhələsini geridə qoydu. Bu transformasiyanın ilk dalğası sosial media platformalarının həyatımıza daxil olması ilə baş verdi. Xəbər resursları sürətlə internet mühitinə köçdü və məlumatın paylanması səlahiyyəti böyük texnologiya nəhənglərinin əlinə keçdi.**



Nəticədə, oxucunun hansı informasiyanı alacağını, hansı xəbərlə qarşılaşacağını alqoritmlər müəyyənləşdirməyə başladı. Lakin ikinci dalğa media dünyasında daha böyük bir dəyişiklik yaratdı. Belə ki, süni intellekt mətbuatın iqtisadi və mənəvi dayaqlarını kökündən dəyişdi.

Sosial media platformaları bir zamanlar xəbəri müəyyən bir şəbəkədən asılı vəziyyətə salmışdısa, süni intellekt xəbər ilə onun ilkin, orijinal mənbəyi arasındakı telləri tamamilə qopardı. İndi əsl xəbər mətni ilə onun sistem tərəfindən hazırlanmış hazır xülasəsi arasındakı sərhədlər silinmək üzrədir. Ənənəvi axtarış sistemlərinin işləmə sistemi sadə və media üçün faydalı idi. Belə ki, oxucu axtarış sistemində başlığı görür, keçid linkinə vuraraq birbaşa xəbər saytına yönəlirdi. Mənbə, müəllifin imzası və məqalənin tam konteksti məhz həmin saytda oxunurdu. Bu model media qurumlarının fəaliyyətini davam etdirməsini, reklam gəliri əldə etməsini və oxucu kütləsini saxlamasını təmin edən əsas iqtisadi çarx idi. Bu gün isə süni intellekt sistemləri bu qaydanı tamamilə pozub. Müasir axtarış interfeysləri istifadəçiyə, sadəcə, keçid linki təqdim etməklə kifayətlənmir. Onlar onlarca fərqli mənbədən məlumatları toplayır, təhlil edir və dərhal yekun cavab mətni hazırlayır. Oxucu xəbər saytına daxil olmadan ehtiyac duyduğu informasiyanı alır. Bununla da mediada "keçid linkləri" dövrü başa çatır və "hazır cavablar" dövrü başlayır.

Xüsusilə "Google" kimi nəhəng sistemlər dərhal hazır xülasə təqdim edəndə istifadəçilər xəbərin əsl sahibinin saytına keçmək ehtiyacı hiss etmirlər. Axtarış prosesi elə ilk ekranda tamamlanır. Mətndə adıçəkilən mənbələrə istinad olunsa belə, oxucuların həmin linklərə klikləmə faizi olduqca aşağıdır. Nəticədə, süni intellektin verdiyi qısa cavab informasiya zamanı son nöqtəyə çevrilir. Bununla da məzmunu böyük əziyyətlə ərsəyə gətirən jurnalist ilə onu istehlak edən oxucu arasındakı birbaşa canlı əlaqə qırılır.

Süni intellekt ilə media sektoru arasındakı iqtisadi münasibətləri təhlil edərkən prosesin iki əsas mərhələdən ibarət olduğunu görürük - zəngin xəbər arxivlərinin böyük dil modellərinin təlimində istifadə edilməsi və ən son, yeni xəbərlərdən yararlanaraq istifadəçiyə anlıq cavabların istehsal olunması. Bu prosesdə nəşriyyatçılar və media mənsubları "ikiqat itki" ilə üz-üzə qalırlar. Əvvəlcə onların illərlə topladığı zəngin arxivlər, analitik yazılar və xəbər bazası süni intellekt sistemlərini "ağıllandırmaq" üçün təmənnasız şəkildə istifadə olunur. Sonra həmin ağıllı sistemlər formalaşdıqdan sonra oxucunu xəbərin yarandığı sayta buraxmır. Yəni media qurumu öz intellektual mülkiyyətinin maddi qarşılığını ala bilmədiyi kimi, üstəlik, öz daimi oxucu auditoriyasını da itirir.

Təbiidir ki, bu iqtisadi mənzərə qlobal miqyasda böyük hüquqi mübarizələrə yol açır. Dünyanın aparıcı media nəhəngləri artıq öz haqqını məhkəmə zallarında tələb edirlər. Məsələn, "The New York Times" kimi nüfuzlu nəşriyyatlar "OpenAI" və "Microsoft" kimi texnologiya nəhənglərini məhkəməyə verərək müəllif hüquqlarının kobud şəkildə pozulduğunu bildirirlər. Cari ilin iyulunda nəşriyyatçıların tələbləri rəsmi məhkəmə sənədlərində aydın şəkildə göstərildi. Media qurumları bildirirlər ki, texnologiya şirkətləri onların əməyi sayəsində milyardlarla dollar qazanırlar. "OpenAI" şirkəti isə istifadəçi gizliliyini qoruduğunu və məlumatlardan qaydalara uyğun istifadə etdiyini deyir.

Ümumiyyətlə, gəlir mənbəyinin kəsilməsi ilk növbədə keyfiyyətli və müstəqil jurnalistikanı zəiflədir. Media şirkətləri maliyyə böhranı səbəbindən daha az jurnalist işə götürür, xərcləri ixtisar edir, uzunmüddətli və baha başa gələn sahə araşdırmalarından imtina etmək məcburiyyətində qalırlar. Burada çox maraqlı və paradoksal bir mənzərə yaranır, keyfiyyətli jurnalistikanın çökməsi ilə süni intellektin istifadə etdiyi keyfiyyətli məlumat bazası da kiçilir. Süni intellekt özünün bəsləndiyi, qidalandığı iqtisadi və intellektual mənbəni tədricən öz əli ilə sıradan çıxarır. Əgər orijinal xəbər istehsalı dayansa, süni intellektin təhlil edəcəyi etibarlı informasiya bazası da tükənəcək.

Qeyd edək ki, süni intellekt texnologiyalarının sürətli inkişafında və rəqəmsal media ekosisteminin yönləndirilməsində iki qlobal güc, Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası liderlik edir. Hər iki dövlət bu sahədə mühüm elmi nailiyyətlərə və nəhəng infrastruktur imkanlarına sahibdir. Lakin onların bu texnologiyaya yanaşma tərzi və tətbiq metodları köklü şəkildə fərqlənir.

ABŞ texnoloji innovasiyaların və böyük dil modellərinin ilk təşəbbüskarı kimi çıxış edir. Amerika modeli daha çox özəl sektorun inkişaf tempinə, azad bazar rəqabətinə və startap ekosisteminə söykənir. Lakin dövlət anlayır ki, süni intellekt ticarətlə yanaşı, həm də mühüm strateji güc vasitəsidir. Vaşinqtonun bu sahədəki baxışını anlamaq üçün cari il iyunun 5-də qəbul edilmiş "Milli Təhlükəsizlik Prezident Memorandumu"na nəzər salmaq kifayətdir. Bu sənəd ABŞ-nin strateji mövqeyini açıq şəkildə ortaya qoyur. Belə ki, süni intellekt modellərinin təhlükəsizlik, kəşfiyyat və informasiya məkanı üzərindəki istifadəsi sürətləndirilir. Dövlət qurumları ilə dünyanın qlobal texnologiya mərkəzi olan Silikon Vadisinin özəl şirkətləri arasında dərin tərəfdaşlıq körpüləri qurulur. ABŞ özəl sektorun çevikliyini dövlətin maraqları ilə birləşdirərək rəqəmsal dünyada qlobal standartları müəyyənləşdirməyə çalışır.

Çin Xalq Respublikası isə məsələyə tamamilə fərqli, mərkəzləşdirilmiş və sistemli bucaqdan yanaşır. Pekin böyük məlumatların işlənməsi və süni intellekt alqoritmlərinin cəmiyyətə tətbiqində inanılmaz nailiyyətlər əldə edib. Çin hökumətinin birbaşa dəstəyi və nəzarəti altında fəaliyyət göstərən yerli texnologiya nəhəngləri qlobal miqyasda rəqabət aparacaq güclü modellər formalaşdırır. Çinin bu sahədəki sistemli yanaşması məlumatların kütləvi şəkildə və effektiv toplanmasını, qısa müddətdə emal edilərək cəmiyyətin xidmətinə verilməsini təmin edir. Çinin rəqəmsal platformalar və süni intellekt üzərindəki texnoloji irəliləyişi rəqəmsal dünyada güc balansını saxlayan əsas faktorlardan biridir.

Beləliklə, bu gün media ilə süni intellektin əlaqələri yeni bir mərhələyə keçir. Süni intellekt xəbərin hazırlanması və yayılması qaydalarını kökündən dəyişir. ABŞ və Çin kimi texnologiya nəhəngləri bu sahədə gələcəyin təməlini qoyurlar. Eyni zamanda bu sahədə jurnalistlərin zəhmətini və müəllif hüquqlarını qorumaq da mühüm amildir. Çünki keyfiyyətli jurnalistika olmasa, süni intellekt də gələcəkdə doğru və etibarlı məlumat tapmaqda çətinlik çəkəcək. Həmçinin informasiya təhlükəsizliyini və dövlətin rəqəmsal müstəqilliyini qorumaq qarşıdakı dövrün ən mühüm vəzifəsidir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Azərbaycan-Qırğızıstan münasibətləri dostluğun nümunəsidir

## Ölkəmizin Mərkəzi Asiya regionu ilə strateji əlaqələri və çoxşaxəli əməkdaşlığı yeni mərhələyə yüksəlir

Beynəlxalq nəqliyyat və enerji xətlərinin yenidən qurulduğu bir şəraitdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətləri daha da dərinləşir. Ölkəmizi Mərkəzi Asiya regionunun qardaş dövlətləri ilə tarixi, mədəni və iqtisadi-siyasi bağlar birləşdirir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev türk dövlətləri arasında həmrəyliyin gücləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.



Son illərdə Azərbaycan və Qırğızıstan əlaqələrində də yüksək dinamika müşahidə olunur. İyulun 30-dan avqustun 1-nədək Qırğızıstanın evsahibliyi ilə ilk dəfə keçirilən "Mərkəzi Asiya-Azərbaycan" Sammiti də ikitərəfli və çoxşaxəli əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən müstəsna platforma rolunu oynayacaq. Bu Zirvə görüşü Azərbaycanın Mərkəzi Asiya regionu ilə sıx inteqrasiyasının, qarşılıqlı faydalar verən tərəfdaşlığının və formalaşan yeni Avrasiya geoiqtisadi reallığının növbəti təzahürüdür.

Bakı və Bişkek əlaqələri qarşılıqlı hörmətə, etimada və strateji tərəfdaşlığa əsaslanan, gələcəyə hesablanmış əməkdaşlıq modelidir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində bu əlaqələr siyasi dialoqdan iqtisadi əməkdaşlığa, parlament diplomatiyasından humanitar münasibətlərə qədər bütün istiqamətlər üzrə davamlı inkişaf edir. Son illərdə həyata keçirilən yüksəksəviyyəli səfərlər, fəal işləyən Dövlətlərarası Şura mexanizmi və imzalanan 105 sənəd münasibətləri strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə yüksəldib.

İki ölkə arasında iqtisadi göstəricilər də yüksəlməkdədir. 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə təxminən üç dəfə artaraq 13,67 milyon dollara çatıb. Azərbaycanın Qırğızıstana məhsul ixracı 10,53 milyon dollara yüksəlib. Maliyyə-investisiya mexanizmləri də sürətlə işə düşür. Nizamnamə kapitalı 100 milyon dollara çatdırılan Azərbaycan-Qırğız İnkişaf Fondu artıq ümumi dəyəri 52,7 milyon dollar olan strateji biznes layihələrini maliyyələşdirib.

İki ölkə arasında enerji təhlükəsizliyi və yanacaq tədarükü sahəsində də əməkdaşlıq dərinləşir. Qırğızıstan daxili bazarının neft məhsulları təminatı və tədarükün şaxələndirilməsi məqsədilə Azərbaycana müraciət edərək, Bakını öz enerji təhlükəsizliyinin etibarlı tərəfdaşı kimi gördüyünü nümayiş etdirib. Nəqliyyat sektorunda AZAL-ın Bakı-Bişkek müntəzəm və Bakı-İssık-Kul mövsümi hava yolu səfərləri işgüzar və turizm əlaqələrini canlandırır.

Azərbaycan və Qırğızıstan beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləyən dost dövlətlərdir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), İqtisadi Əməkdaşlıq Təşkilatı və digər çoxtərəfli platformalarda hər iki ölkə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqedən çıxış edir. Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq Azərbaycan-Qırğızıstan münasibətlərinə yeni məzmun qazandıraraq iqtisadi, nəqliyyat, rəqəmsallaşma, təhsil və humanitar sahələrdə birgə layihələrin həyata keçirilməsi üçün geniş imkanlar yaradır.

İkitərəfli münasibətlərin vacib istiqamətlərindən biri də mənəvi həmrəylik və humanitar sahədir. Qırğızıstan hökumətinin maliyyə dəstəyi ilə işğaldan azad olunmuş Ağdamın Xıdırlı kəndində inşa edilən 528 şagird yerlik Ayköl Manas adına tam orta məktəb bu qardaşlığın əməli rəmzidir. Bişkekdə Azərbaycanın dəstəyi ilə Heydər Əliyev adına Məktəb-Gimnaziya Kompleksinin, Nizami Gəncəvi adına məktəbin və Dostluq Parkının fəaliyyət göstərməsi xalqlarımız arasında dərin mənəvi bağlılığı sübut edir. Mədəniyyət günlərinin qarşılıqlı təşkili, Bakıda Çingiz Aytmatovun abidəsinin açılması, media sahəsində sıx əməkdaşlıq türk dünyasında mədəni və informasiya inteqrasiyasını daha da dərinləşdirir.

Qeyd edək ki, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanın sıx inteqrasiyasını təcəssüm etdirən C6 formatı, sadəcə, siyasi görüşlərlə məhdudlaşmır. Bu format nəqliyyat, energetika, ticarət, rəqəmsallaşma və regional təhlükəsizlik sahələrini əhatə edən vahid geoiqtisadi məkanın formalaşdırılması mexanizmidir. Azərbaycanın bu platformada tamhüquqlu fəaliyyəti regionun coğrafi və iqtisadi məntiqindən irəli gəlir. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Cənubi Qafqaza, Türkiyəyə və geniş Avropa bazarlarına açılan təhlükəsiz və qısa tranzit dəhlizidir. Yəni Azərbaycan Mərkəzi Asiyanın Qərbə strateji qapısı rolunu oynayır.

Regional əməkdaşlığın ən vacib elementlərindən birini Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) təşkil edir. Orta dəhliz Asiya ilə Avropa arasında strateji nəqliyyat xəttinə çevrilməkdədir. Bu kontekstdə tikintisi sürətlənən Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu xüsusi çəkiyə malikdir. Layihə başa çatdıqdan sonra bu xətt Orta dəhlizin şərq hissəsini təşkil edəcək. Bununla yüklərin Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya daşınmasını daha da sürətləndirəcək. Bu səbəbdən Zəngəzur dəhlizi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi davamı kimi qiymətləndirilir.

Zəngəzur dəhlizinin açılması dənizə çıxışı olmayan ölkələr üçün alternativ tranzit imkanlarının yaradılması deməkdir. Bu dəhliz inhisarlaşmanın qarşısını alacaq, daha rəqabətli tariflər təmin edəcək və riskləri minimuma endirəcək. Bununla da Sakit okeandan Avropayadək uzanan proqnozlaşdırıla bilən təchizat zənciri tamamlanacaq.

Nəticə etibarı ilə Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin, xüsusən Qırğızıstanın daha fəal və sıx əməkdaşlığı hər iki region üçün çoxsaylı dividendlər vəd edir. Birincisi, dənizə çıxışı olmayan Mərkəzi Asiya respublikaları üçün Avropa və dünya bazarlarına ən qısa, təhlükəsiz və rəqabətqabiliyyətli marşrutlar açılır. İkincisi, "yaşıl enerji" dəhlizlərinin formalaşdırılması, günəş, külək və ənənəvi neft məhsulları sahəsində birgə resurs imkanları birləşdirilir. Üçüncüsü, Türk Dövlətləri Təşkilatı və C6 platformaları çərçivəsində çoxtərəfli beynəlxalq qurumlarda vahid mövqedən çıxış edilərək regionun qlobal geostrategiyada çəkisi artırılır. Bütün bunlar göstərir ki, Azərbaycan-Mərkəzi Asiya tərəfdaşlığı Avrasiya məkanında formalaşan yeni iqtisadi reallığın uzunmüddətli maraqlarına söykənir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Azərbaycan təhlükəsiz və çevik bağlantı strategiyası ilə qlobal dəhlizlərin əsas mərkəzinə çevrilib

Şərqlə Qərbin, Şimalla Cənubun strateji qovşağında yerləşən Azərbaycan Avrasiya məkanında həlledici logistika mərkəzi və etibarlı tərəfdaş mövqeyini gündəngünə möhkəmləndirir. Coğrafi üstünlüklərini uzaqgörən siyasətlə birləşdirən dövlətimiz bu istiqamətdə real iqtisadi və siyasi dividendlər qazanıb. Həyata keçirilən məqsədyönlü siyasət ölkəmizi qlobal təchizat, rəqəmsal bağlantı və enerji təhlükəsizliyinin həlledici mərkəzinə çevirib. Kənar maliyyə asılılığı olmadan, öz daxili resursları hesabına nəqliyyat və logistika imkanlarını genişləndirən Azərbaycan Avrasiya coğrafiyasının əvəzolunmaz aktoru sayılır.

Birmənalı vurğulamaq lazımdır ki, bu strateji baxışın əməli müstəvidə uğur qazanması siyasi iradənin və düzgün qurulmuş diplomatiyanın nəticəsidir. Çünki səmərəli nəqliyyat sisteminin formalaşması üçün yalnız fiziki infrastruktur kifayət etmir, eyni zamanda regional sabitlik və qarşılıqlı etimada əsaslanan qonşuluq münasibətləri də vacib şərtlərdəndir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, yenilənən magistral yollar və müasir gəmiqayırma imkanları ölkəmizin logistik xəritəsini köklü şəkildə dəyişib. Türkiyə, Gürcüstan və Mərkəzi Asiya dövlətləri ilə qurulan sıx tərəfdaşlıq gömrük və tarif siyasətinin uyğunlaşdırılmasına, yükdaşımaların sürətlənməsinə zəmin yaradıb.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda Azərbaycanın tranzit mərkəzinə çevrilməsində fiziki infrastrukturun və sağlam qonşuluq siyasətinin vacibliyini xüsusilə vurğulayıb: "Biz bəlkə də 10 ildən artıqdır çalışdıq ki, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq".

Coğrafi mövqe təkbaşına üstünlük yaratmır. Azərbaycan son 10 ildə böyük investisiyalar yatıraraq limanlar, dəmir yolları və magistrallar inşa etməklə bu potensialı real infrastruktura çevirib. Tranzit daşımalar zəncirvari prosesdir. Qonşularla qarşılıqlı etimad, səmərəli əməkdaşlıq olmasa, ən müasir infrastruktur belə heç nəyə yaramır.

Son illərdə dünyada cərəyan edən gərgin proseslər alternativ dəhlizlərə olan ehtiyacı kəskin şəkildə artırıb. Məhz bu fonda Orta dəhlizin və "Şimal-Cənub" marşrutlarının kəsişməsində yerləşən Azərbaycanın bağlantı strategiyasının nə qədər əhəmiyyətli olduğu aydın görünür. Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən Orta dəhlizin cəlbediciliyinin artması yük axınını dəfələrlə artırıb. Azərbaycan bu artımı qarşılamaq üçün öz daxili resursları hesabına nəqliyyat imkanlarını genişləndirməkdə davam edir. Çünki artan tələbat çərçivəsində mövcud infrastrukturların ötürücülük qabiliyyətinin daha da yüksəldilməsi zərurətə çevrilib.




Dövlətimizin başçısı Şuşa Qlobal Media Forumunda bu məsələyə də toxunub: "Biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır. Əlbəttə, bütün bunları bir araya gətirmək üçün bizə dəhlizi səmərəli edə biləcək bir çox addımları atmaq vacib idi".

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükötürmə qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması, həmçinin yerli gəmiqayırma zavodunda yeni gəmilərin inşasının sürətləndirilməsi istiqamətində addımlar atılır. Dəniz limanlarının tutumunun artırılması, gəmiqayırma zavodunda yeni gəmilərin inşası, dəmir yolu və avtomobil xətlərinin müasirləşdirilməsi Azərbaycanın qlobal logistika şəbəkəsindəki yerini daha da gücləndirir. Bu layihələr milli iqtisadiyyatın şaxələnməsi ilə paralel, regional inteqrasiyanın və ticarət dövriyyəsinin genişlənməsinə də xidmət edir. İnfrastrukturun bu cür məqsədyönlü genişləndirilməsi Azərbaycanın gələcəkdə daha da artacaq beynəlxalq daşıma tələbatını qarşılamağa tam hazır olduğunu və qlobal təchizat zəncirində əvəzolunmaz halqaya çevrildiyini nümayiş etdirir.

Nəticə etibarilə Azərbaycanın reallaşdırdığı hərtərəfli bağlantı siyasəti, coğrafi mövqeyin müasir infrastruktur, çevik diplomatiya və etibarlı tərəfdaşlıqla tamamlanması Bakını Avrasiyanın önəmli siyasi və iqtisadi güc mərkəzlərindən birinə çevirib. Bu mütərəqqi strategiya ölkəmizin uzunmüddətli milli təhlükəsizliyinin, iqtisadi dayanıqlılığının və beynəlxalq nüfuzunun etibarlı zəmanətidir.

***İ.QOCAYEV, "Azərbaycan"***



# Azərbaycan bu gün həm də idman sahəsində öndədir

## 1997-ci il iyulun 31-də İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçilmişdir

**Dövlətlərin taleyini təkcə müxtəlif sahələrdə möhtəşəm qələbələr təmin etmir. Bəzən vaxtında qəbul edilən uzaqgörən qərar bütöv bir sahənin inkişaf istiqamətini dəyişir, onilliklərlə davam edən uğurların təməlini qoyur.**

Azərbaycanın müasir tarixində də belə taleyüklü qərarlardan biri 1997-ci il iyulun 31-də Azərbaycan Milli Olimpiya Komitəsinin Baş Məclisinin qəbul etdiyi qərardır. Həmin gün İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi ölkədə Olimpiya hərəkatının və ümumilikdə idmanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Sonrakı illər göstərdi ki, bu, sadəcə, rəhbər dəyişikliyi yox, Azərbaycan idmanının inkişaf fəlsəfəsini yeniləyən, müasir idarəetmə modelini formalaşdıran və ölkəmizi dünyanın idman dövlətlərindən birinə çevirən strateji qərar idi.

Bu tarixi qərarın əhəmiyyətini dəyərləndirmək üçün əvvəlcə həmin dövrədək Azərbaycan idmanının keçdiyi yola nəzər salmaq lazımdır. XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan eyni vaxtda siyasi, iqtisadi və hərbi baxımdan son dərəcə mürəkkəb mərhələ yaşayırdı. Ermənistanın hərbi təcavüzü, torpaqlarımızın işğalı, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, iqtisadi tənəzzül ölkənin bütün sahələri kimi, idman sisteminə də ciddi zərbə vurmuşdu.

Müstəqilliyin ilk illərində problemlər təkcə maliyyə çatışmazlığı ilə məhdudlaşmırdı. Sovet idman sisteminin dağılması yeni idarəetmə modelinin yaradılmasını zəruri etmişdi. Federasiyalar kifayət qədər təşkilatlanmamış, idman bazaları köhnəlmiş, beynəlxalq əlaqələr zəifləmişdir. Bir çox idman obyekti baxımsız vəziyyətdə idi. Peşəkar hazırlıq üçün lazımi şərait mövcud deyildi. İstedadlı idmançıların və məşqçilərin bir hissəsi ölkəni tərk edir, digərləri isə fəaliyyətlərini davam etdirməkdə çətinlik çəkirdilər. Bununla belə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra dövlət quruculuğunun digər sahələri kimi, gənclər və idman siyasətində də yeni mərhələ başlanmışdı. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1995-ci ildə Prezident yanında İdman Fondunun təsis edilməsi dövlətin bu sahəyə strateji yanaşmasının ilk mühüm addımları idi.

Əlamətdar hadisələrdən biri də 1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılması, 1993-cü ildə isə onun Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması idi. Bununla da Azərbaycan müstəqil dövlət kimi dünya Olimpiya ailəsinin tamhüquqlu üzvü olmuşdu.

1996-cı ildə ABŞ-nin Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiya Oyunları müstəqil Azərbaycan idmanının tarixində yeni səhifə açdı. İlk dəfə olaraq ölkəmiz Olimpiya Oyunlarına öz milli komandası ilə qatıldı. Yarışlarda 23 idmançı Azərbaycanı təmsil edirdi. Sərbəst güləşçi Namiq Abdullayevin qazandığı gümüş medal müstəqil Azərbaycanın ilk Olimpiya medalı kimi tarixə düşdü.

Bu uğur böyük mənəvi əhəmiyyət daşısa da, dünya idmanında rəqabətədavamlı mövqe qazanmaq üçün fərdi istedadın kifayət etmədiyi də aydın görünürdü. Güclü maddi-texniki baza, peşəkar idarəetmə, beynəlxalq əməkdaşlıq və davamlı dövlət dəstəyi olmadan böyük uğurlar mümkün deyildi. İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi Azərbaycan idmanında yeni inkişaf strategiyasının başlanğıcı oldu. O dövrdə artıq dövlət idarəçiliyində və beynəlxalq münasibətlərdə qazandığı təcrübə ilə tanınan İlham Əliyev idmanın müasir prinsiplər əsasında idarə olunmasının vacibliyini ön plana çəkdi.

Beləliklə, Milli Olimpiya Komitəsinin fəaliyyətində sistemli islahatlara start verildi. Federasiyaların işi yenidən təşkil olundu, məsuliyyət və hesabatlılıq prinsipləri gücləndirildi, peşəkar məşqçilərin hazırlanmasına, xarici təcrübənin öyrənilməsinə xüsusi diqqət ayrıldı. İllərlə idmandan uzaq düşmüş təcrübəli mütəxəssislərin yenidən bu sahəyə cəlb olunması milli idman məktəbinin ənənələrinin qorunmasına və yeni nəslin yetişməsinə mühüm töhfə verdi. İslahatların mühüm istiqamətlərindən biri də idmançıların sosial müdafiəsinin gücləndirilməsi idi. Perspektivli idmançılar və onların məşqçiləri üçün xüsusi təqaüdlər təsis edildi, Olimpiya hazırlığı keçən idmançıların maddi təminatı yaxşılaşdırıldı, onların beynəlxalq təlim-məşq toplanışlarında iştirakı, müasir inventarla və tibbi-bərpa xidmətləri ilə təminatı dövlət tərəfindən dəstəkləndi.

Eyni zamanda beynəlxalq əlaqələrin genişləndirilməsi prioritet istiqamət kimi müəyyənləşdirildi. Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri və müxtəlif idman federasiyaları ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın dünya idman ailəsində nüfuzunun artmasına imkan yaratdı. Sonralar ölkəmizə etibar olunan mötəbər beynəlxalq yarışların əsasında da məhz həmin illərdə formalaşdırılmış etimad dayanırdı.

İslahatların mühüm nəticələrindən biri də regionlarda Olimpiya İdman komplekslərinin tikintisinə başlanılması oldu. Bununla idmanın inkişafı bütün ölkəni əhatə edən ümummilli hərəkata çevrildi. Regionlarda yaradılan müasir idman infrastrukturu minlərlə uşaq və gəncin idmana cəlb olunmasına, yeni istedadların üzə çıxmasına və kütləvi idmanın inkişafına geniş imkanlar yaratdı. Prezident İlham Əliyevin sonralar söylədiyi "Biz idmançılar üçün hərtərəfli şərait yaratmalı, onlardan isə yüksək nəticələr gözləməliyik" fikri həmin inkişaf modelinin əsas prinsipinə çevrildi.

İnfrastrukturun inkişafı bununla məhdudlaşmadı. Bakıda dünya standartlarına cavab verən iri idman qurğularının tikintisi Azərbaycanın beynəlxalq idman mərkəzi kimi mövqeyini möhkəmləndirdi. Təxminən 68 min tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionu təkcə ölkəmizin deyil, bütün Cənubi Qafqazın ən böyük idman arenalarından biridir. Burada keçirilən I Avropa Oyunları, UEFA AVRO-2020-nin oyunları və digər beynəlxalq yarışlar Azərbaycanın ən yüksək təşkilatçılıq standartlarına malik dövlətlər sırasında yer aldığını nümayiş etdirdi.

Milli Gimnastika Arenası qısa müddətdə dünyanın ən müasir gimnastika komplekslərindən biri kimi tanındı. Bakı Su İdmanı Sarayı, Bakı Atıcılıq Mərkəzi, Velopark, Bakı Kristal Zalı və digər idman obyektləri ölkənin idman potensialını əhəmiyyətli dərəcədə genişləndirdi. Eyni zamanda əvvəlki illərdə fəaliyyət göstərən stadionlar, idman məktəbləri və bazalar əsaslı şəkildə yenidən qurularaq beynəlxalq federasiyaların tələblərinə uyğunlaşdırıldı. Nəticədə Azərbaycan müxtəlif idman növləri üzrə eyni vaxtda nüfuzlu beynəlxalq yarışları qəbul edə bilən azsaylı ölkələrdən birinə çevrildi.

Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra bu siyasət yeni məzmun qazandı. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında idman həyatının bərpası dövlət siyasətinin prioritet istiqamətlərindən biri oldu. Suqovuşanda beynəlxalq avarçəkmə reqatalarının təşkili, Ağalı kəndində cüdo bölməsinin yaradılması, Xankəndidə Azərbaycan Kuboku çərçivəsində futbol oyununun keçirilməsi təkcə idman hadisəsi kimi deyil, dövlət suverenliyinin, Böyük Qayıdış Konsepsiyasının və milli birliyin rəmzi kimi tarixə düşdü. Bu gün də idman infrastrukturu davamlı şəkildə yenilənir, mövcud komplekslər müasir texnologiyalarla təchiz olunur, yeni layihələrin icrası ardıcıl davam etdirilir. Bu isə Azərbaycanda idmanın birdəfəlik kampaniya deyil, uzunmüddətli dövlət strategiyası olduğunu bir daha təsdiqləyir.

Müasir idman yalnız güclü infrastrukturla ölçülmür. XXI əsrdə idman dövlətlərin beynəlxalq nüfuzunu formalaşdıran ən təsirli "yumşaq güc" alətlərindən birinə çevrilib. Dünyanın aparıcı ölkələri idman vasitəsilə siyasi sabitliyini, iqtisadi potensialını, təşkilatçılıq bacarığını və mədəniyyətini nümayiş etdirirlər. Azərbaycanın son onilliklərdə keçdiyi inkişaf yolu da bu baxımdan diqqətəlayiq nümunədir.

Milli Olimpiya Komitəsində başlanmış islahatların mühüm istiqamətlərindən biri beynəlxalq idman təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi oldu. Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri, İslam Həmrəyliyi İdman Federasiyası və müxtəlif beynəlxalq federasiyalarla münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəldi. Azərbaycan artıq yalnız beynəlxalq yarışlarda iştirak edən ölkə deyil, qlobal idman hərəkatının etibarlı tərəfdaşlarından biridir. Bu etimadın mühüm göstəricilərindən biri 2004-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin Prezident İlham Əliyevi ali "Olimpiya" ordeni ilə təltif etməsi oldu. Mükafat beynəlxalq Olimpiya hərəkatının inkişafına verilən strateji töhfənin yüksək qiymətləndirilməsi idi.

Azərbaycanın idman diplomatiyasının ən mühüm uğurlarından biri isə 2012-ci il dekabrın 8-də Romada keçirilən Avropa Olimpiya Komitələrinin Baş Assambleyasında ilk Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi oldu. Avropanın ilk qitə oyunlarına evsahibliyi hüququnun Azərbaycana həvalə olunması ölkəmizə göstərilən böyük beynəlxalq etimadın ifadəsi idi. Diqqətəlayiq məqam ondan ibarət idi ki, belə miqyaslı yarışların hazırlanması üçün adətən 7-8 il vaxt ayrıldığı halda Azərbaycanın cəmi 2 il yarım vaxtı vardı. Üstəlik, ilk Avropa Oyunları üçün hazır təşkilati model mövcud deyildi. Başqa sözlə, Bakı təkcə yarış keçirməli yox, həm də Avropa Oyunlarının gələcək standartlarını müəyyənləşdirməli idi.

Prezident İlham Əliyevin 2013-cü il 17 yanvar tarixli sərəncamı ilə yaradılan Təşkilat Komitəsinin rəhbərliyini Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva həyata keçirirdi. Qısa müddətdə görülən hazırlıq işləri nəticəsində 2015-ci ilin iyununda Bakı tarixdə ilk Avropa Oyunlarına yüksək səviyyədə evsahibliyi etdi. 50 ölkədən 6000-dən çox idmançının iştirak etdiyi yarışlar 21 müasir idman obyektində təşkil olundu. Açılış və bağlanış mərasimləri, könüllülərin fəaliyyəti, təhlükəsizlik sistemi, nəqliyyat infrastrukturu və media xidmətləri beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirildi. Azərbaycan bununla sübut etdi ki, ən mürəkkəb beynəlxalq layihələri rekord müddətdə və ən yüksək standartlarla həyata keçirmək iqtidarındadır.

İki il sonra keçirilən IV İslam Həmrəyliyi Oyunları bu qənaəti daha da möhkəmləndirdi. 57 ölkədən minlərlə idmançının qatıldığı yarışlarda Azərbaycan komandası 75 qızıl medal qazanaraq birinci oldu. Bu oyunların əsas əhəmiyyəti medal statistikası ilə məhdudlaşmırdı. Bakı müxtəlif mədəniyyətləri və sivilizasiyaları bir araya gətirən beynəlxalq həmrəylik platforması olduğunu bir daha təsdiqlədi.

Həmin idman tədbirlərindən əlavə, ölkəmiz "Formula-1" Azərbaycan Qran-prisinə, UEFA AVRO-2020 oyunlarına, dünya və Avropa çempionatlarına, Dünya Şahmat Olimpiadasına, gimnastika üzrə Dünya Kuboku mərhələlərinə, eləcə də cüdo, güləş, boks, taekvondo və digər idman növləri üzrə çoxsaylı nüfuzlu yarışlara uğurla evsahibliyi etdi. Bu yarışların hər biri Azərbaycanın müasir idman infrastrukturuna, yüksək təşkilatçılıq bacarığına və təhlükəsiz mühitə malik dövlət olduğunu bir daha sübut etmiş oldu.

Azərbaycan idmanının son 30 ilə yaxın dövrdə qazandığı nailiyyətlərin ən obyektiv göstəricisi beynəlxalq yarışlarda əldə olunan nəticələrdir. Bu uğurlar ayrı-ayrı idmançıların fərdi nailiyyətləri deyil, ardıcıl dövlət siyasətinin, məqsədyönlü idarəetmənin və uzunmüddətli inkişaf strategiyasının məntiqi nəticəsidir. Müstəqilliyin ilk illərində Olimpiya Oyunlarında cəmi bir medal qazanan Azərbaycan sonrakı dövrdə dünyanın aparıcı idman ölkələri sırasında mövqeyini möhkəmləndirdi. Güləş, cüdo, boks, taekvondo, gimnastika, atıcılıq, karate və digər idman növləri üzrə qazanılan uğurlar göstərdi ki, ölkədə formalaşdırılan sistem artıq sabit nəticələr verir.

Tokio Yay Olimpiya Oyunlarında karate ilk dəfə Olimpiya proqramına daxil edilərkən Rafael Ağayev və İrina Zaretskanın qazandıqları gümüş medallar Azərbaycanın yeni idman növlərində də yüksək rəqabət qabiliyyətinə malik olduğunu nümayiş etdirdi. 2024-cü ildə Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunları isə Azərbaycan idmanında yeni nəslin formalaşdığını bir daha təsdiqlədi. Azərbaycan 48 idmançı ilə təmsil olunaraq 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazandı. Cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyevin Olimpiya çempionluğu Azərbaycan cüdo məktəbinin artıq dünyanın ən güclü məktəblərindən birinə çevrildiyini bir daha sübut etdi. Prezident İlham Əliyevin Olimpiya mükafatçıları ilə görüşdə söylədiyi "Bu nəticələr Azərbaycanın güclü idman dövləti olduğunu bir daha təsdiqlədi" fikri təkcə Paris Olimpiadasının yekunlarına deyil, son 30 ilə yaxın müddətdə həyata keçirilən ardıcıl dövlət siyasətinə verilən yüksək qiymət idi.

Azərbaycanın Olimpiya göstəricilərinə statistik baxış inkişafın miqyasını daha aydın nümayiş etdirir. Müstəqillik dövründə keçirilmiş 8 Yay Olimpiya Oyununda idmançılarımız ümumilikdə 52 medal (9 qızıl, 16 gümüş, 27 bürünc) qazanıblar. Əgər 1996-cı ildə Atlanta Olimpiadasında ölkəmiz cəmi 23 idmançı ilə təmsil olunurdusa, son Olimpiya Oyunlarında nümayəndə heyətinin sayı 50-yə yaxın idi. Medal qazanan idman növlərinin sayı da genişlənir. Bu rəqəmlər, sadəcə, statistika deyil. Onlar 1997-ci il iyulun 31-də əsası qoyulan inkişaf strategiyasının real nəticələrini əks etdirən ən obyektiv göstəricilərdir. 2025-ci ildə İlham Əliyevin yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi isə idman siyasətində varisliyin və strateji inkişaf kursunun davamlılığını bir daha təsdiqləyir.

Ən mühüm nəticə bundan ibarətdir ki, Azərbaycanda idman artıq yalnız medal uğrunda mübarizə deyil, dövlətçilik təfəkkürünün, milli həmrəyliyin, sağlam cəmiyyət quruculuğunun, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin və ölkəmizin beynəlxalq nüfuzunun mühüm sütunlarından biridir. Məhz buna görə də 31 iyul 1997-ci il müasir Azərbaycan dövlətçiliyinin salnaməsində idmanın yeni inkişaf mərhələsinin başlandığı əlamətdar tarix kimi qalır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan idmanının inkişaf trayektoriyası

## Ölkəmizin dünya səviyyəli idmançılara malik olması uzunmüddətli strategiyanın nəticəsidir

**31 iyul Azərbaycan idman tarixində mühüm dönüş nöqtələrindən biri kimi yadda qalıb. 1997-ci il iyulun 31-də İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçildi və həmin dövr ölkənin idman həyatında yeni mərhələnin başlanğıcı oldu. Həyata keçirilən islahatlar, yaradılan infrastruktur və beynəlxalq arenada qazanılan uğurlar Azərbaycanın idman ölkəsi kimi tanınmasına mühüm töhfə verdi.**

**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında deyib ki, 1990-cı illərin əvvəllərində ölkədə mövcud olan mürəkkəb ictimai-siyasi və iqtisadi vəziyyət idman sahəsinə də təsirsiz ötüşməmişdi. Maddi-texniki baza zəif idi, federasiyaların fəaliyyəti lazımi səviyyədə deyildi, beynəlxalq yarışlarda iştirak imkanları məhdud idi. Prezident İlham Əliyev həmin dövrü belə xarakterizə edirdi: "1997-ci ildə Azərbaycan idman ictimaiyyəti mənə bu etimadı göstərəndə ölkə idmanı o qədər də yaxşı vəziyyətdə deyildi. Biz vahid komanda kimi fəaliyyət göstərərək bugünkü gözəl nəticələrə gəlib çatmışıq".



Deputat qeyd edib ki, 1997-ci ildə Milli Olimpiya Komitəsinin yeni rəhbərliyinin formalaşdırılması ilə bu sahədə sistemli dəyişikliklərin əsası qoyuldu: "İlk mərhələdə idman federasiyalarının fəaliyyətinin gücləndirilməsi, peşəkar məşqçilərin cəlb edilməsi, idmançıların sosial təminatının yaxşılaşdırılması və Olimpiya hərəkatının inkişafı istiqamətində ardıcıl addımlar atıldı. Paralel olaraq, ölkənin müxtəlif bölgələrində müasir olimpiya idman komplekslərinin tikintisinə başlanıldı. Bu komplekslər peşəkar idmanın və kütləvi bədən tərbiyəsinin inkişafına xidmət edən mühüm mərkəzlərə çevrildi. Bu siyasətin nəticələri beynəlxalq yarışlarda da özünü göstərdi. Azərbaycan idmançıları Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında əvvəlki dövrlərlə müqayisədə daha çox medal qazanmağa başladılar. Ölkəmiz uğurlu idmançıları ilə yanaşı, iri beynəlxalq yarışlara evsahibliyi edən dövlət kimi tanındı. İlk Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" Azərbaycan Qran-prisi və müxtəlif dünya çempionatları Azərbaycanın idman infrastrukturunun və təşkilatçılıq imkanlarının nümayişinə çevrildi. Avropa Olimpiya komitələrinin rəhbərləri də bəyan ediblər ki, Azərbaycanda idmanın və Olimpiya hərəkatının inkişafı İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycanın idman sahəsində qazandığı uğurlar həyata keçirilən ardıcıl dövlət siyasətinin nəticəsidir".

K.Nurullayeva bildirib ki, ümumiyyətlə, Azərbaycan beynəlxalq yarışların yüksək səviyyədə təşkilinə görə dünya idman qurumları tərəfindən etibarlı təşkilatçı kimi qiymətləndirilib. Bu amil ölkəmizin dünya idman məkanında da nüfuzunun artmasının əsas göstəricilərindən biridir. "İdmanın inkişafı ilə yanaşı, sağlam həyat tərzinin təşviqi də dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bölgələrdə yaradılan müasir idman qurğuları minlərlə gəncin idmana cəlb edilməsinə, yeni çempionların yetişməsinə şərait yaradıb. Bu gün Azərbaycanın bir çox idman növündə dünya səviyyəli idmançılara malik olması uzunmüddətli inkişaf strategiyasının nəticəsidir", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, 29 il əvvəl Milli Olimpiya Komitəsində başlanan yeni idarəetmə mərhələsi Azərbaycan idmanının inkişaf trayektoriyasına əhəmiyyətli təsir göstərib. Bu dövr ərzində ölkədə idman infrastrukturu genişlənib, beynəlxalq əməkdaşlıq möhkəmlənib və Azərbaycan qlobal idman məkanında tanınan ölkələrdən birinə çevrilib. Təsadüfi deyil ki, 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalı da Azərbaycanda keçiriləcək.

Həmin qərarın ölkəmizin idman tarixində mühüm hadisələrdən biri olduğunu deyən K.Nurullayeva əlavə edib ki, bu, ilk növbədə Azərbaycanın beynəlxalq idman ictimaiyyətində qazandığı yüksək etimadın, həmçinin son illərdə idman sahəsində həyata keçirilən ardıcıl dövlət siyasətinin növbəti uğurlu nəticəsidir: "Əminliklə demək olar ki, 2026-cı ildə keçiriləcək U-15 futbol üzrə dünya çempionatı və festivalı həm idman sahəsində növbəti uğurumuz olacaq, həm də Azərbaycanın beynəlxalq nüfuzunun, təşkilatçılıq imkanlarının və gənclər siyasətinin növbəti dəfə dünyaya nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyacaq. Son 6 ildə isə bütün sahələrdə olduğu kimi, idman sahəsində də tam yeni reallıqlar yaranıb. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən sonra Azərbaycan idmançıları artıq beynəlxalq arenalara həm də qalib xalqın və qalib dövlətin nümayəndələri kimi çıxırlar. Bu amil onların məsuliyyətini artırmaqla yanaşı, Azərbaycan idmanının beynəlxalq imicinə də yeni məzmun qazandırıb".

Deputat vurğulayıb ki, bu gün Azərbaycan idmançısı beynəlxalq arenaya çıxarkən yalnız şəxsi nailiyyəti uğrunda mübarizə aparmır, o, qalib ölkəni, ərazi bütövlüyünü bərpa etmiş dövləti və güclü xalqı təmsil edir. Məhz buna görə beynəlxalq yarışlarda qazanılan hər bir qələbə idman nailiyyəti olmaqla yanaşı, həm də Azərbaycanın müasir simasının və dövlət gücünün nümayişidir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Dövlət proqramı aqrar təhsil qarşısında yeni vəzifələr qoyur

**Müasir dünyada kənd təsərrüfatı artıq yalnız iqtisadiyyatın ənənəvi sahəsi deyil. Ərzaq təhlükəsizliyinin təmin olunması, iqlim dəyişikliklərinə uyğunlaşma, innovativ texnologiyaların tətbiqi, rəqəmsal həllərin genişləndirilməsi və dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılması aqrar sektoru dövlət siyasətinin strateji istiqamətlərindən birinə çevirib.**



Bu baxımdan Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkəmizdə aqrar inkişafın növbəti mərhələsini müəyyən edən mühüm yol xəritəsidir. Dövlət proqramında aqrar istehsalın artırılması ilə yanaşı, müasir bilik və bacarıqlara malik insan kapitalının formalaşdırılması, innovasiyaların tətbiqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və elmi potensialın gücləndirilməsi əsas prioritetlər kimi müəyyən olunmuşdur.

Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş son müşavirədə səsləndirdiyi fikirlər də bu strateji baxışı aydın şəkildə ortaya qoyur. Dövlət başçısı qeyd edib ki, bu gün dünyada baş verən geosiyasi proseslər, iqlim dəyişiklikləri və qlobal ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik hər bir dövləti ərzaq təhlükəsizliyi məsələsinə xüsusi həssaslıqla yanaşmağa vadar edir. Bu baxımdan kənd təsərrüfatının inkişafı təkcə iqtisadi məsələ deyil, həm də milli təhlükəsizlik məsələsidir.

Prezident müşavirədə xüsusi vurğulayıb ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməli və konkret addımlar atmalıdır. Bu çağırış yalnız istehsal həcmlərinin artırılmasını deyil, eyni zamanda müasir düşüncəyə malik, innovativ yanaşmaları tətbiq edə bilən yüksəkixtisaslı aqrar mütəxəssislərin hazırlanmasını da zəruri edir. Məhz buna görə dövlət proqramının icrasında ali təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ölkənin yeganə aqraryönümlü ali təhsil müəssisəsi kimi qarşıdakı dövrdə fəaliyyətini məhz bu strateji hədəflərə uyğun qurur. Universitetimiz yalnız kadr hazırlayan təhsil müəssisəsi deyil, aqrar elmin, innovasiyanın, beynəlxalq əməkdaşlığın və müasir texnologiyaların tətbiqini təmin edən strateji inkişaf platforması kimi çıxış etməyi qarşısına məqsəd qoyub.

Bu gün dünya təcrübəsi göstərir ki, aqrar sektorun inkişafını yalnız maddi resurslar hesabına təmin etmək mümkün deyil. Ən böyük investisiya insan kapitalına qoyulan sərmayədir. Məhz buna görə dövlət proqramında aqrar təhsil, elmi tədqiqat və beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Sənəddə 2030-cu ilədək aqrar ixtisaslar üzrə ikili diplom proqramlarını başa vuran məzunların sayının ən azı 500 nəfərə çatdırılması konkret hədəf kimi müəyyən edilib. Bu göstərici ADAU üçün həm məsuliyyət, həm də yeni imkanlar yaradır. Çünki son illərdə universitetimiz beynəlxalq əməkdaşlıq istiqamətində formalaşdırdığı yeni model sayəsində artıq regional deyil, beynəlxalq aqrar təhsil məkanının fəal iştirakçısına çevrilməkdədir.

Əgər bir neçə il əvvəl beynəlxalq əlaqələr əsasən akademik mübadilə ilə məhdudlaşırdısa, bu gün əməkdaşlığın mahiyyəti tamamilə dəyişib. İndi əsas məqsəd birgə təhsil proqramları yaratmaq, beynəlxalq akkreditasiyaya malik təhsil modellərini tətbiq etmək, ortaq elmi tədqiqatlar aparmaq və dünyanın qabaqcıl universitetləri ilə uzunmüddətli strateji tərəfdaşlıq qurmaqdır. Bu baxımdan Macarıstan Kənd Təsərrüfatı və Həyat Elmləri Universiteti (MATE) ilə həyata keçirilən əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Hazırda bir neçə istiqamət üzrə ikili diplom proqramlarının son hazırlıq mərhələsi həyata keçirilir. ABŞ-nin Oklahoma Dövlət Universiteti ilə magistratura səviyyəsində həyata keçiriləcək ikili diplom proqramı isə Azərbaycan aqrar təhsilinin beynəlxalq inteqrasiyasında yeni səhifə açır. Bu proqramların əsas üstünlüyü yalnız tələbələrin iki universitetin diplomunu əldə etməsində deyil. Əsas məqsəd dünyanın qabaqcıl aqrar təcrübəsini Azərbaycan gənclərinə çatdırmaq, onların müasir laboratoriyalarda işləməsini təmin etmək, innovativ texnologiyalarla tanış etmək və əldə olunan biliklərin ölkəmizin aqrar sektorunda tətbiqinə nail olmaqdır. Dövlət proqramında müəyyən edilən hədəflər göstərir ki, yaxın illərdə məhz belə beynəlxalq proqramlar Azərbaycanın aqrar inkişaf strategiyasının əsas dayaqlarından birinə çevriləcək. Bu mühüm dövlət sənədinin ali təhsil sahəsində qarşıya qoyduğu prioritetlərdən biri də beynəlxalq əlaqələrin dərinləşdirilməsi və Azərbaycanın aqrar təhsil sisteminin qlobal elm məkanına inteqrasiyasıdır. ADAU-da son illər həyata keçirilən islahatlar da məhz bu məqsədə xidmət edir.

Müasir kənd təsərrüfatının əsas xüsusiyyətlərindən biri bilik və texnologiyanın sərhəd tanımamasıdır. Bu gün inkişaf etmiş ölkələrin əldə etdiyi elmi nailiyyətlərin qısa müddətdə digər ölkələrdə tətbiq olunması aqrar sahənin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdəndir. Buna görə də universitetimiz beynəlxalq tərəfdaşlıq münasibətlərini yalnız akademik əlaqələr kimi deyil, yeni texnologiyaların, innovativ idarəetmə modellərinin və müasir elmi yanaşmaların Azərbaycana transfer mexanizmi kimi qiymətləndirir.

Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi daha bir mühüm fikir bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı qeyd edib ki, torpaqlardan səmərəli istifadə etmək üçün onların dəqiq təhlili aparılmalı, süni intellektdən, peyk texnologiyalarından və digər müasir rəqəmsal həllərdən geniş istifadə olunmalıdır. Əslində, bu yanaşma gələcəyin aqrar mütəxəssisinin necə hazırlanmalı olduğunu da müəyyən edir. Bu çağırışlar Azərbaycan Dövlət Aqrar Universitetində tədris proqramlarının yenilənməsini, rəqəmsal kənd təsərrüfatı, dəqiq əkinçilik, aqrar informasiya sistemləri, coğrafi informasiya texnologiyaları, süni intellekt və iqlimədavamlı kənd təsərrüfatı istiqamətlərinin daha da inkişaf etdirilməsini zəruri edir. Universitetdə həyata keçirilən beynəlxalq layihələr, icra olunan təşəbbüslər məhz bu məqsədə xidmət edir.

İnsan kapitalının inkişafı da dövlət proqramının mühüm istiqamətlərindən biridir. Müasir aqrar mütəxəssis yalnız auditoriyada əldə etdiyi biliklərlə kifayətlənməməli, qabaqcıl istehsalat müəssisələrində praktik təcrübə qazanmalıdır. Məhz buna görə universitetimiz tələbələrin xaricdə təhsil və istehsalat təcrübəsinin genişləndirilməsini fəaliyyətimizin əsas prioritetlərindən biri hesab edir. Son illərdə bu istiqamətdə mühüm nəticələr əldə olunub. Avropa universitetləri ilə mobillik layihələri, beynəlxalq yay məktəbləri və qısamüddətli təcrübə proqramları artıq yüzlərlə tələbənin peşəkar inkişafına mühüm töhfə verir. Qarşıdakı illərdə isə bu imkanların daha da genişləndirilməsi nəzərdə tutulur.

Biz qarşıya belə bir konkret məqsəd qoymuşuq: hər il daha çox tələbəmiz dünyanın qabaqcıl universitetlərində və aqrar müəssisələrində təhsil alsın, istehsalat təcrübəsi keçsin və qazandığı bilik və bacarıqları Azərbaycana gətirərək milli kənd təsərrüfatının inkişafına töhfə versin. Çünki beynəlxalq təcrübə yalnız fərdi inkişaf vasitəsi deyil, bütövlükdə ölkənin aqrar potensialını gücləndirən strateji resursdur.

Prezident İlham Əliyev müşavirədə xüsusi olaraq vurğulayıb ki, kənd təsərrüfatı ilə məşğul olanlar üçün metodik tövsiyələrin verilməsi, treninqlərin təşkili və maarifləndirmə işinin daha da gücləndirilməsi vacibdir. Bu istiqamət Azərbaycan Dövlət Aqrar Universitetinin qarşıdakı illərdə fəaliyyətində mühüm yer tutacaq. Universitet yalnız ali təhsil müəssisəsi kimi deyil, fermerlər, aqrobiznes subyektləri və regionlarda fəaliyyət göstərən təsərrüfatlar üçün bilik və innovasiya mərkəzi kimi də öz missiyasını genişləndirəcək.

Dövlət başçısının müşavirədə səsləndirdiyi "Biz elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın" fikri isə əslində, proqramın sosial mahiyyətini ifadə edir. Bu məqsədə nail olmağın yolu kənd yerlərində müasir iqtisadi mühit yaratmaqdan, rəqabətqabiliyyətli istehsalı inkişaf etdirməkdən və peşəkar kadr potensialını gücləndirməkdən keçir. Azərbaycan Dövlət Aqrar Universiteti də məhz bu strateji məqsədin reallaşmasına öz töhfəsini verməyə çalışır.

Əminik ki, dövlət proqramının uğurlu icrası nəticəsində Azərbaycan aqrar sektoru keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Universitetimiz isə bu prosesdə müasir biliklərə malik mütəxəssislərin hazırlanması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi innovasiyaların istehsalata tətbiqi və qlobal təcrübənin ölkəmizə gətirilməsi istiqamətində fəaliyyətini daha da gücləndirəcək. Bizim strateji məqsədimiz təkcə beynəlxalq reytinqlərdə mövqeyimizi yüksəltmək deyil. Əsas hədəfimiz Azərbaycan kənd təsərrüfatının gələcəyini formalaşdıracaq, innovativ düşüncəyə malik, müasir texnologiyaları mənimsəyən, qlobal rəqabət mühitində uğur qazana bilən yeni nəsil aqrar mütəxəssislər yetişdirməkdir.

*Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf prioritetləri və 2026-2030-cu illəri əhatə edən dövlət proqramı bu məqsədlərə nail olmaq üçün etibarlı yol xəritəsidir. Azərbaycan Dövlət Aqrar Universiteti bu strateji yol xəritəsinin icrasında üzərinə düşən vəzifələri yüksək məsuliyyətlə yerinə yetirəcək, aqrar təhsilin beynəlxalq səviyyədə inkişafına, elmin istehsalla inteqrasiyasına və ölkəmizin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə bundan sonra da öz töhfəsini verəcəkdir.*

***Zəfər QURBANOV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru***

# Qızılı qiymətli edən təkcə əyarı deyil

## "AzerGold" QSC özünün sosial-ekoloji tədbirləri ilə də seçilir

Mədənlər bəzən təkcə yerin dərinliklərində gizlənən sərvətləri üzə çıxarmır, həm də ölkənin iqtisadi gücünü, texnoloji imkanlarını və gələcəyə baxışını nümayiş etdirir.



Azərbaycanın qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ötən 10 ildə məhz belə bir inkişaf yolu keçərək müasir dağ-mədən sənayesinin aparıcı şirkətlərindən birinə çevrilib.

İyulun 27-29-da təşkil olunan mediatur çərçivəsində Göygöl və Daşkəsən rayonlarında səfərdə olan jurnalistlər "AzerGold" QSC-nin 10 illik fəaliyyəti dövründə həyata keçirdiyi layihələr, əldə etdiyi nəticələr və gələcək planları barədə geniş məlumat aldılar. Səfərin ən yadda-



qalan məqamlarından biri isə Daşkəsən rayonunda yerləşən Çovdar qızıl yatağına baş çəkmək oldu. Jurnalistlər bu qiymətli metalın mədəndən çıxarılması, emal mərhələləri və müasir istehsal prosesləri ilə yaxından tanış olmaq imkanı əldə etdilər.

Şirkətin əldə etdiyi nailiyyətlərin əsasında dövlətin qeyri-neft sektorunun inkişafına, təbii sərvətlərin səmərəli idarə olunmasına və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş strateji siyasəti barədə jurnalistlərə geniş məlumat verildi. Öyrəndik ki, 2016-cı ildə fəaliyyətə başlayan şirkət qısa müddətdə geoloji kəşfiyyatdan hasilata, emaldan sənaye xidmətlərinə və qiymətli metalların satışına qədər geniş fəaliyyət zənciri formalaşdırıb. Ötən 10 il ərzində 2 yeni qızıl yatağı kəşf edilib, 4 qızıl mədəni və regional sənaye kompleksi istifadəyə verilib.

Şirkətin ilk böyük layihəsi olan Çovdar qızıl yatağında aparılan işlər xüsusi diqqət çəkir. Əlavə kəşfiyyat və optimallaşdırma tədbirləri nəticəsində yatağın ehtiyatları əhəmiyyətli dərəcədə artıb. Çovdar, "Mərəh", "Ağyoxuş" və "Tülallar" yataqlarının vahid istehsal mərkəzi çərçivəsində idarə olunması məqsədilə yaradılan Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi (ÇİRES) istehsalın səmərəliliyini artırmağa imkan verib.

Bu günədək "AzerGold" tərəfindən istismar olunan mədənlərdən 558 min unsiyadan çox qızıl, 1 milyon unsiyadan artıq gümüş hasil edilib. Şirkət qiymətli metalların satışı nəticəsində 2,2 milyard manatdan çox gəlir əldə edib, dövlət büdcəsinə vergi və sosial ödənişlər vasitəsilə 295,3 milyon manat vəsait yönəldib.

Şirkətin qarşıdakı illər üçün əsas prioritetlərindən biri yeni yataqların istismara hazırlanmasıdır. Kəlbəcərdə yerləşən Söyüdlü (Zod) qızıl yatağı, Balakəndəki Filizçay polimetal yatağı və Naxçıvandakı Ortakənd qızıl yatağı Azərbaycanın dağ-mədən sənayesinin gələcək inkişafında mühüm rol oynaya biləcək strateji layihələr sırasında yer alır. Daşkəsən dəmir filizi layihəsi isə ölkənin metallurgiya sənayesi üçün xüsusi əhəmiyyət daşıyır. Layihənin tam icrası nəticəsində yeni sənaye zəncirinin yaradılması, ixrac imkanlarının artırılması və regionlarda minlərlə yeni iş yerinin açılması nəzərdə tutulur.

Mediatur zamanı diqqətçəkən məqamlardan biri də "AzerGold"un fəaliyyətində yerli kadrlara verilən üstünlük oldu. Hazırda şirkət 2640 nəfəri daimi işlə təmin edir. Onların təxminən 80 faizi region sakinləridir. Bu, xüsusən Gəncə-Daşkəsən iqtisadi rayonunda məşğulluğun təminatına mühüm töhfə verir.

Şirkətin insan kapitalının inkişafına yönəlmiş yeni təşəbbüsləri sırasında Daşkəsən məktəbliləri üçün hazırlıq kurslarının təşkili xüsusi əhəmiyyət daşıyır. Etibarlı və peşəkar kadr potensialının formalaşdırılmasını strateji hədəflərindən biri hesab edən "AzerGold" QSC bu layihə ilə region gənclərinin təhsil imkanlarının genişləndirilməsinə dəstək göstərməyi qarşıya məqsəd qoyur. Layihə çərçivəsində məktəblilərin əlavə hazırlıq kurslarına cəlb olunması, onların bilik və bacarıqlarının artırılması nəzərdə tutulur. Şirkət tərəfindən ayrılmış xüsusi nəqliyyat vasitəsi şagirdlərin hazırlıq dərslərinə rahat çatdırılmasını təmin edəcək. Bu təşəbbüs həm valideynlərin əlavə nəqliyyat və hazırlıq xərclərinin azalmasına, həm də şagirdlərin keyfiyyətli təhsil imkanlarından bərabər yararlanmasına şərait yaradacaq. Kurslarda təcrübəli və yüksəkixtisaslı müəllimlərin iştirakı ilə məktəblilərin gələcək təhsil və peşə seçimlərinə mühüm dəstək veriləcək.

Göründüyü kimi, şirkətin fəaliyyəti yalnız hasilat göstəriciləri ilə məhdudlaşmır. "AzerGold" fəaliyyət göstərdiyi ərazilərdə sosial məsuliyyət layihələrinə də xüsusi diqqət ayırır. Bu günədək şirkət tərəfindən təhsil, səhiyyə, aqrar inkişaf, kiçik sahibkarlıq və digər istiqamətlərdə 100-dən çox sosial layihə həyata keçirilib.

Ekoloji məsələlər də şirkətin fəaliyyət strategiyasında mühüm yer tutur. "AzerGold" Azərbaycanda rekultivasiya tədbirləri reallaşdıran ilk dağ-mədən şirkətlərindəndir. Bu çərçivədə istismarı başa çatmış ərazilərdə torpaq qatı bərpa olunur, yaşıllaşdırma işləri və ağacəkmə layihələri həyata keçirilir.

Şirkətin gələcək hədəfləri sırasında geoloji kəşfiyyat işlərinin və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, yeni bazarlara çıxış imkanlarının tapılması da xüsusi yer tutur. Özbəkistanla həyata keçirilən əməkdaşlıq bu istiqamətdə atılan mühüm addımlardan biridir.

"AzerGold"un 10 illik fəaliyyəti göstərir ki, müasir mədənçilik yalnız yeraltı sərvətlərin hasilatı deyil. Bu həm də regionların sosial-iqtisadi inkişafı və Azərbaycanın sənaye potensialından ölkənin xeyrinə istifadə olunmasıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# <u>*Xayotjon İBRAHİMOV:*</u> "Azərbaycanla inteqrasiya Mərkəzi Asiyada dayanıqlı iqtisadi məkan formalaşdırır"

"Orta dəhlizin inkişafı artıq siyasi bəyanatlar mərhələsindən çıxaraq praqmatik iqtisadi hesablamalar müstəvisinə keçir. Mərkəzi Asiya ölkələri üçün bu marşrut getdikcə iqtisadi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas amillərdən birinə çevrilir. Materikin daxilində yerləşən region ölkələri üçün Xəzər dənizinin limanlarına, oradan isə Cənubi Qafqaza birbaşa və müstəqil çıxış əldə etmək ixracın maya dəyərini azaltmaq və qlobal təchizat zəncirlərinə öz şərtləri ilə inteqrasiya olunmaq baxımından mühüm əhəmiyyət daşıyır".



Bunu AZƏRTAC-a açıqlamasında **Özbəkistanın Perspektiv Beynəlxalq Araşdırmalar İnstitutunun Enerji Diplomatiyası və Geosiyasət Mərkəzinin rəhbəri Xayotjon İBRAHİMOV** deyib.

Ekspert bildirib ki, bu nəqliyyat sistemində Azərbaycan yalnız tranzit ölkəsi deyil, Mərkəzi Asiya dövlətlərinin strateji tərəfdaşı kimi çıxış edir.

"Azərbaycanın yaratdığı müasir infrastruktur - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu olmasaydı, Trans-Xəzər marşrutu öz məntiqi tamlığını itirərdi. Bununla belə, Xəzəri Mərkəzi Asiya ilə Avropa arasında tamhüquqlu nəqliyyat körpüsünə çevirmək üçün konkret praktik addımların atılması vacibdir. İlk növbədə marşrut üzrə vahid rəqəmsal dəhlizin formalaşdırılması zəruridir. Vahid elektron yük sənədlərinin tətbiqi, avtomatlaşdırılmış gömrük yoxlamalarının həyata keçirilməsi yüklərin limanlarda gözləməsinin qarşısını ala bilər. İkinci mühüm məsələ vahid multimodal operatorun və bütün marşrut üzrə proqnozlaşdırılan vahid tarif siyasətinin yaradılmasıdır. Yük sahiblərinə çoxsaylı fərqli tariflər deyil, aydın və iqtisadi cəhətdən səmərəli daşınma modeli lazımdır. Bununla yanaşı, infrastrukturun paralel şəkildə inkişaf etdirilməsi də mühüm əhəmiyyət daşıyır. Ticarət donanmasının genişləndirilməsi, yeni logistika mərkəzlərinin yaradılması və Orta dəhlizin regionda inşa edilən yeni nəqliyyat arteriyaları, o cümlədən "Çin-Qırğızıstan-Özbəkistan" dəmir yolu ilə əlaqələndirilməsi xüsusi diqqət tələb edir", - deyə ekspert qeyd edib.

X.İbrahimov hesab edir ki, C6+1 formatı Mərkəzi Asiya ölkələrinin beynəlxalq münasibətlər sistemində mövqeyini keyfiyyətcə yeni mərhələyə yüksəldə bilər.

"Azərbaycanın Mərkəzi Asiyanın beş dövləti ilə birlikdə C6+1 formatında təmsil olunması regionun beynəlxalq subyektliyini prinsipial şəkildə dəyişir. Bu halda biz artıq ayrı-ayrı ölkələr kimi deyil, vahid tranzit və ticarət regionu kimi çıxış edirik. Bu isə Avropa İttifaqı, Çin və beynəlxalq investorlarla aparılan danışıqlarda regionun mövqeyini əhəmiyyətli dərəcədə gücləndirə bilər. Azərbaycanın bu mexanizmdə iştirakı əməkdaşlığın praktik nəticələrini daha da artıracaq. Nəqliyyat sahəsində bu, Avropaya qədər bütün marşrut üzrə tariflərin əlaqələndirilməsinə imkan yaradar. Enerji sahəsində Xəzər və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi kimi iri layihələrin həyata keçirilməsi üçün möhkəm zəmin formalaşar və Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"nin Avropa bazarlarına ixracı üçün yeni imkanlar açılar. Ticarət baxımından biz xammalın birgə emalını təşkil edə, hazır məhsulu Azərbaycanın azad iqtisadi zonaları vasitəsilə dünya bazarlarına çıxara bilərik. C6+1 formatı regional təhlükəsizliyin möhkəmləndirilməsi baxımından da mühüm üstünlüklər yaradır. Bu mexanizm kritik infrastrukturun birgə qorunmasına, məlumat mübadiləsinin genişləndirilməsinə və istənilən xarici geosiyasi çağırış zamanı logistika zəncirində yaranan problemlərin operativ şəkildə aradan qaldırılmasına imkan verə bilər.

Nəticə etibarilə Azərbaycanla inteqrasiya Mərkəzi Asiyada dayanıqlı, özünü təmin edən iqtisadi məkanın formalaşdırılmasına şərait yaradır və regionun müasir geosiyasi çağırışlara daha effektiv cavab verməsini təmin edir", - deyə Xayotjon İbrahimov fikrini yekunlaşdırıb.

# Dağıstan Azərbaycanla sərhəddəki nəzarət-buraxılış məntəqələrini modernləşdirir

Dağıstanın Baş naziri Maqomed Ramazanov Rusiya-Azərbaycan sərhədindəki "Yaraq-Kazmalyar" və "Taqirkent-Kazmalyar" avtomobil buraxılış məntəqələrinin işi ilə tanış olub.



AZƏRTAC Dağıstan Respublikası hökumətinə istinadla xəbər verir ki, hər iki buraxılış məntəqəsi Maqaramkent rayonunda yerləşir və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsidir. Yenilənmiş "Yaraq-Kazmalyar" buraxılış məntəqəsinə səfər zamanı M.Ramazanov onun texniki təchizatı və sərhəd infrastrukturunun gələcək inkişaf perspektivləri ilə tanış olub. Buraxılış məntəqəsinin yenidən qurulmasına 2020-ci ildə başlanılıb.

Keçən il buraxılış məntəqəsinin tutumu 11 faiz artırılaraq gündə 640 yük maşınına çatdırılıb. Burada həmçinin rəqəmsal yoxlama sistemləri də tətbiq olunur ki, bu da ilin sonuna qədər yük maşınlarının standart yoxlama müddətini 10 dəqiqəyə endirməyə imkan verməlidir.

M.Ramazanov həmçinin "Taqirkent-Kazmalyar" keçid məntəqəsinin yenidən qurulmasının gedişatı ilə də tanış olub. Burada yük daşınması 2022-ci il aprelin 29-da açılıb. Hazırda keçid məntəqəsi gündə orta hesabla 230 yük maşını qəbul edir. Yenidənqurma işlərinin başa çatması 2028-ci ilin dördüncü rübünə planlaşdırılır. İşlər yekunlaşdıqdan sonra keçid məntəqəsinin ötürmə qabiliyyəti gündə 200-dən 2360 nəqliyyat vasitəsinə, o cümlədən 1100 yük maşınına qədər artmalıdır. Hərəkət zolaqlarının sayı 8-dən 20-yə qədər artacaq.

İQTİSADİYYAT

# Çində kənd təsərrüfatı məhsullarımızın təqdimatı genişlənir

**Azərbaycanın Çinlə iqtisadi və ticarət əlaqələri son illər xeyli şaxələnib. Xüsusilə Prezident İlham Əliyevin keçən ilin aprel ayında Çinə dövlət səfəri çərçivəsində ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanması ilə iqtisadi əməkdaşlıq yeni inkişaf mərhələsinə qədəm qoyub.**

Sıx əməkdaşlığın həyata keçirildiyi sahələrdən biri də kənd təsərrüfatıdır. Sözügedən Birgə Bəyanatın bəndlərinin birində yazılıb ki, tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Azərbaycanın və Çinin kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən qurumlarının yaratdıqları əlaqələr, keçirilən görüşlər və birgə tədbirlər nəticə etibarilə qarşıya qoyulan məsələlərin yüksək səviyyədə həllinə xidmət edir.

Yeri gəlmişkən qeyd edək ki, elə bu yaxınlarda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdir müavini Rəşad Nəcəfli Çin Xalq Respublikasının Çanşa şəhərində keçirilən "İnkişaf etməkdə olan ölkələr üçün kənd təsərrüfatı məhsullarının keyfiyyəti və təhlükəsizliyinin idarə edilməsi" mövzusunda beynəlxalq seminarda iştirak edib.

Seminarın açılış mərasimində iştirakçı ölkələrin nümayəndələri arasında keçirilən seçim nəticəsində R.Nəcəfli iştirakçı ölkələrin nümayəndə heyətlərinin lideri seçilib. O, açılış mərasimində iştirakçı ölkələr adından çıxış edərək Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın uğurla inkişaf etdiyini, bu kimi beynəlxalq təlim proqramlarının bilik və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsinə, peşəkar əməkdaşlığın möhkəmləndirilməsinə və davamlı inkişaf məqsədlərinə mühüm töhfə verdiyini vurğulayıb. Eləcə də kənd təsərrüfatı məhsullarının keyfiyyəti və qida təhlükəsizliyinin iqtisadi inkişafın, ictimai sağlamlığın və milli ərzaq təhlükəsizliyinin əsas istiqamətlərindən biri olduğunu nəzərə çatdırıb.




Bu seminar kənd təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət, qida təhlükəsizliyi sistemləri, beynəlxalq standartlar, sertifikatlaşdırma mexanizmləri, rəqəmsal həllər və innovativ idarəetmə təcrübələri üzrə bilik və təcrübə mübadiləsinin aparılması, həmçinin inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığın genişləndirilməsi məqsədi daşıyıb. Proqram çərçivəsində iştirakçılar kənd təsərrüfatı məhsullarının keyfiyyətinin idarə olunması, laboratoriya və inspeksiya sistemləri, məhsulların izlənilməsi (traceability), risklərin qiymətləndirilməsi, rəqəmsal monitorinq alətləri və qida təhlükəsizliyi sahəsində Çin Xalq Respublikasının qabaqcıl təcrübəsi ilə tanış olublar.

Yaxud Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədovun Çin Xalq Respublikasının səfiri Lu Mey ilə ötən ilin sentyabında keçirilən görüşünü yada salaq. Azərbaycanda aqrar sektora dövlət dəstəyi barədə ətraflı məlumat verilən bu görüşdə nazir bildirmişdir ki, Azərbaycanla Çin arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan Çin ilə iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsinə yönəlmiş bütün təşəbbüsləri tam dəstəkləyir.

Görüşdə aqrar sahədə əməkdaşlığın və hüquq-müqavilə bazasının gücləndirilməsi, kənd təsərrüfatı üzrə birgə işçi qrupun yaradılması barədə fikir mübadiləsi aparılmışdır. Eləcə də kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə ən müasir texnologiyaların transferi, aqrar tədqiqat və innovasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Səfir Lu Mey Çinin Azərbaycanla dost ölkə olduğunu və bütün sahələrdə tərəfdaşlığın inkişafına maraq göstərdiyini vurğulamışdır. O, kənd təsərrüfatı, innovasiya və texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcudluğunu qeyd etmişdir.

Potensial həqiqətən böyükdür. Ölkələrimiz kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində hüquqi-normativ sənədlərin imzalanması, birgə işçi qruplarının yaradılması, ixrac imkanlarının genişləndirilməsi və fitosanitar nəzarət sahəsində təcrübə mübadiləsi vasitəsilə fəal əməkdaşlıq edirlər.

Azərbaycan məhsullarının Çin bazarına çıxışı üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə Çinin müvafiq qurumları arasında mühüm protokollar imzalanıb. Fındıq və badam, həmçinin quş əti, su məhsulları və vəhşi su bioloji ehtiyatlarının Çinə ixracı üçün karantin və təhlükəsizlik tələbləri razılaşdırılıb. Gilas, alma, xurma, nar və digər kənd təsərrüfatı bitkilərinin ixrac coğrafiyasının genişləndirilməsi müzakirə olunur.

Onu da qeyd edək ki, ölkəmiz Çinə neft və kimya məhsulları ilə yanaşı, pambıq, həmçinin fındıq, şərab və digər spirtli-spirtsiz içkilər ixrac edir.

Hazırda Çində ölkəmizə məxsus 6 ticarət evi fəaliyyət göstərir. Ümumilikdə isə orada ticarət və şərab evləri, həmçinin ticarət bölmələri ilə birlikdə 10-dan çox nümayəndəliyimiz var. Ticarət evləri Pekin, Şanxay, Tsindao (Qingdao), Çendu, Çjantszyatsze (Canciaciye) və Nankin şəhərlərində yerləşir. Ciansu əyalətinin Nankin şəhərindəki Ticarət evi 2024-cü ilin may ayında açılıb. Ticarət bölmələri Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində, Şərab evləri Urumçi və Şanxayda fəaliyyət göstərir.

Bu layihələr yerli "Made in Azerbaijan" brendinin Çin bazarında tanıdılmasına və məhsullarımızın ixracı imkanlarının genişləndirilməsinə xidmət edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycanın xarici dövlət borcu 4,1 faiz azalıb

**Cari il iyulun 1-nə Azərbaycanın xarici dövlət borcu 4 milyard 616,8 milyon dollar və ya 2026-cı il üzrə 130 milyard 873,5 milyon manat (76 milyard 984,4 milyon dollar) məbləğində proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 6 faizini təşkil edib.**




Maliyyə Nazirliyi açıqlayıb ki, xarici dövlət borcu 2026-cı ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 196,7 milyon dollar və ya 4,1 faiz azalıb. Bu ilin birinci yarısı ərzində kredit sazişləri çərçivəsində 57,1 milyon dollar məbləğində vəsaitin istifadə edilməsi və xarici valyuta məzənnələrinin ABŞ dollarına münasibətdə zəifləməsi nəticəsində xarici dövlət borcunun ABŞ dolları ifadəsində 20,4 milyon ABŞ dolları məbləğində azalması müqabilində 233,4 milyon dollar vaxtı çatmış əsas borc ödənişlərinin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib.

İyulun 1-nə xarici dövlət borcunun ÜDM-ə nisbəti 2026-cı ilin əvvəli ilə müqayisədə 0,3 faiz bəndi azalıb.

Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,4 faizini, sabit dərəcə ilə olanlar isə 50,6 faizini təşkil edib.

Xarici dövlət borcu portfelinin 35,7 faizi Asiya İnkişaf Bankının, 30 faizi avrobondların, 12,9 faizi Dünya Bankının, 21,4 faizi isə İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Asiya İnfrastruktur və İnvestisiya Bankı və digər kreditorlardan cəlb edilmiş öhdəliklərin payına düşür.

## Qarabağ və Şərqi Zəngəzur üzrə kredit qoyuluşları artıb

**Bu il iyulun 1-nə Qarabağ iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi 566,791 milyon manat olub. Bu barədə Azərbaycan Mərkəzi Bankının statistik bülletenində bildirilib.**

"Trend" xəbər verir ki, bu göstərici ötən ilin eyni dövrünə nisbətən 66,8 milyon manat və ya 13,3 faiz çoxdur. Hesabat dövründə sözügedən region üzrə kredit qoyuluşlarının orta faiz dərəcəsi 19,74 faizə bərabər olub.

Bu il iyulun 1-nə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi isə ötən ilin eyni dövrü ilə müqayisədə 22,6 milyon manat və ya 2,9 dəfə artaraq 34,418 milyon manata bərabər olub.

Beləliklə, dövr ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə cəmi kredit qoyuluşlarının həcmi 601,209 milyon manata çatıb ki, bu da illik müqayisədə 89,4 milyon manat və ya 17,5 faiz artım deməkdir.

Kredit qoyuluşlarının artımı azad edilmiş ərazilərdə davam edən genişmiqyaslı bərpa və iqtisadi canlanma prosesi fonunda baş verir. Son illər Qarabağ və Şərqi Zəngəzurda dövlət investisiyaları hesabına nəqliyyat, energetika, kommunal infrastruktur, sənaye və yaşayış məntəqələrinin bərpası istiqamətində iri layihələr həyata keçirilir ki, bu da biznes aktivliyinin və maliyyələşməyə tələbatın artmasına şərait yaradır.

## Dünya birjalarında neftin qiymətləri qalxır

### Azərbaycan nefti 98 dollardan baha satılır

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,12 dollar artaraq 91,86 dollar olub.**



Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,77 dollar bahalaşaraq 85,23 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə 6,97 dollar və ya 7,6 faiz artaraq 98,19 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Azərbaycan Orta dəhlizdə yeni təşəbbüslər ünvanıdır

## 5-ci Qara dəniz-Xəzər Logistika Forumu sentyabrda Bakıda keçiriləcək

**Azərbaycan Orta dəhlizdə mühüm qovşaq ölkə kimi xüsusi statusa malikdir. Avropa ilə Asiyanı olduğu kimi, Şimalla Cənubu da qovuşduran magistral xətlərin keçdiyi Azərbaycan hər iki marşrutun səmərəliliyini artırmaq üçün yeni layihələrlə çıxış edir.**

Ölkəmizin təşəbbüsü ilə cari il aprelin 8-9-da keçirilən Azərbaycan-Gürcüstan Beynəlxalq Avtomobil Əlaqələri üzrə Qarışıq Komissiyanın birgə iclasını xatırlayaq. İclasda tərəflər yükdaşımaların həcmini artırmaq üçün elektron icazə blanklarından istifadə edilməsi barədə razılığa gəlmişlər. Yeni qaydaya əsasən, yükdaşıyanlar günün 24 saatı, həftənin 7 günü ərzində tam avtomatik olaraq istədikləri icazə sənədini əldə edə bilərlər. Razılaşmaya görə, tərəflər arasında ilkin olaraq 1000 ikitərəfli, 1000 tranzit və üçüncü ölkəyə 1000 elektron icazə blankı təqdim edilib. Elektron icazə blanklarından istifadə bütün növ yükdaşımaların artmasına imkan yaradıb. Bununla da Gürcüstan Azərbaycanın elektron icazə (E-Permit) sisteminin tətbiqinə qoşulan beşinci ölkə olub.

Bu il sentyabrın 7-9-da isə Azərbaycanın təşəbbüsü ilə Bakıda sayca 5-ci Qara Dəniz-Xəzər Logistika Forumu keçiriləcək. Forum Asiya, Xəzər dənizi və Qara dənizlə Avropa arasında infrastrukturun və yük axınlarının idarə olunmasında bilavasitə iştirak edən nüfuzlu şirkət və təşkilatların nümayəndələrini bir araya gətirəcək. Bununla yanaşı, tədbirə dəniz limanları və terminallarının, gəmiçilik və bərə operatorlarının, dəmir yolu şirkətlərinin, ekspeditor və logistika təşkilatlarının, yük sahiblərinin, dövlət orqanlarının, beynəlxalq maliyyə institutlarının və investisiya şirkətlərinin nümayəndələrinin də iştirakçı qismində qatılacağı gözlənilir. Forumda 20-dən çox ölkədən 100-dən artıq şirkəti təmsil edən 150-dən çox nümayəndənin iştirakı nəzərdə tutulur.

Tədbirin əsas məqsədi Asiya və Avropa arasında yükdaşıma marşrutu kimi fəaliyyət göstərən Orta dəhlizin gələcək inkişaf perspektivlərini bu yolla 2026-2027-ci illərdə yükdaşıma həcmləri və çatdırılma müddətləri ilə bağlı potensialını, həmçinin onun buraxılış qabiliyyətinin daha da artırılması üçün tələb olunan investisiyaların yatırılmasını araşdırmaqdır. Forumda həmçinin regional nəqliyyat infrastrukturunun inkişafına təsir edən yeni marşrutlar və geosiyasi amillər, eləcə də Zəngəzur marşrutu (TRIPP), Trans-Əfqanıstan istiqaməti və Orta dəhlizin beynəlxalq daşımalar sistemindəki strateji rolunun mümkün transformasiyası diqqət mərkəzində olacaq.

Məlumdur ki, Orta dəhliz marşrutunun buraxılış qabiliyyətinin artırılmasında Çin mühüm rol oynayır. İştirakçılar həyata keçirilən və planlaşdırılan infrastruktur layihələrini, konteyner qatarlarının inkişafını və geriyə yüklənmənin təmin edilməsi məsələlərini məhz bu kontekstdə araşdıracaqlar. Bundan başqa, forum çərçivəsində Xəzər dənizində gəmiçilik və bərə daşımalarının perspektivlərinin müzakirə edilməsi planlaşdırılır. Xüsusən yüksəktutumlu gəmilərin tikintisi və istismarı, konteynerləşdirmənin inkişafı, Ro-Ro tipli gəmilərlə daşımaların genişləndirilməsi və tariflərin dinamikası əsas mövzulardan biri olacaq.






Forumda 2030-cu ilə qədər liman infrastrukturunun modernləşdirilməsindən, yanalma infrastrukturunun inkişafından, müasir kran komplekslərinin quraşdırılması, dibdərinləşdirmə işlərinin aparılması və limanların daxili regionlarla nəqliyyat əlaqələrinin yaxşılaşdırılması məsələlərindən də söhbət gedəcəyi nəzərdə tutulur. Bundan başqa, Asiya və Avropa arasındakı marşrutlarda yük axınlarının strukturuna diqqət yetiriləcək, xüsusən enerji daşıyıcıları, taxıl, gübrə, metal, kritik əhəmiyyətli minerallar və layihə yüklərinin daşınması perspektivlərinin təhlilinə diqqət yetiriləcək.

Yük axınlarının sürətləndirilməsi üçün nəqliyyat dəhlizinin rəqəmsallaşdırılması önəmli rol oynayır. Bu məqsədlə iştirakçılar məlumat mübadiləsi üçün vahid platformaların yaradılmasını, gömrük prosedurlarının uzlaşdırılmasını və elektron sənəd dövriyyəsinin inkişafını, həmçinin bu sahədə əldə olunmuş uğurları dəyərləndirəcəklər. Forumda habelə beynəlxalq maliyyə institutlarının və inkişaf banklarının regionun nəqliyyat infrastrukturunun maliyyələşdirilməsindəki rolu təhlil ediləcək. İştirakçılar Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Dünya Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və Avropa İnvestisiya Bankının fəaliyyətini, eləcə də onların maliyyələşdirdiyi layihələri və vəsaitlərin verilmə şərtlərini araşdıracaqlar.

Tədbirin təşkilatçıları qeyd ediblər ki, Bakının foruma evsahibliyi etməsi onun regional nəqliyyat sistemindəki strateji mövqeyi ilə bağlıdır. Azərbaycan paytaxtı Orta dəhlizin dəniz və quru marşrutlarının kəsişdiyi, eləcə də infrastruktur operatorlarının, logistika biznesinin və potensial investorların nümayəndələrinin bir araya gəldiyi əsas qovşaqlardan biridir. Bu baxımdan şübhə yox ki, forum konkret investisiya layihələrinin, infrastrukturun inkişafının, Asiya, Xəzər dənizi və Qara dənizlə Avropa arasında nəqliyyat əlaqələrinin səmərəliliyinin artırılması üçün mühüm platformaya çevriləcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# REGİONLAR

## Şəmkirin yaşayış məntəqələrinin 98 faizi təbii qazla təmin olunur

**Şəmkirdə qaz təsərrüfatının müasir standartlara uyğun yenilənməsi istiqamətində ardıcıl və genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Rayon icra hakimiyyəti ilə aidiyyəti dövlət qurumları arasında yaradılan səmərəli əməkdaşlıq nəticəsində qaz təchizatının etibarlılığı artırılır, mövcud şəbəkələr yenilənir, yeni yaşayış məntəqələrinin qazlaşdırılması təmin olunur.**

2021-2025-ci illər ərzində icra olunan layihələr çərçivəsində qaz təsərrüfatının texniki cəhətdən müasirləşdirilməsi ilə yanaşı, əhalinin təhlükəsiz və dayanıqlı qaz təchizatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Bu dövrdə Aşağı Seyfəli kəndində 300 fərdi yaşayış evindən ibarət yeni salınmış yaşayış massivi qazlaşdırılmışdır.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində də rayonda qaz infrastrukturunun inkişafı istiqamətində işlər xeyli genişləndirilib. Hazırda Tatarlı kəndində 220 fərdi yaşayış evinin yerləşdiyi yeni salınmış yaşayış massivinə təbii qaz xətti çəkilir.  Varlı Həyat, Qaraqoyunlu və Atabəy kəndlərində isə yeni qaz xətlərinin çəkilişi və tikinti-quraşdırma işləri başa çatdırılıb. Hazırda həmin yaşayış məntəqələri üzrə sənədləşmə prosesi aparılır. Proses yekunlaşdıqdan sonra kəndlər təbii qazla təmin ediləcək. Bununla da Şəmkir rayonunda yalnız 5 dağ kəndi qazlaşmamış qalacaq. Bu da rayon əhalisinin təxminən 98 faizinin təbii qazla təmin olunması deməkdir.

Qaz təchizatının təhlükəsiz və dayanıqlı təşkili məqsədilə yenidənqurma işləri də davam edir - yeni qaz tənzimləyiciləri quraşdırılır, diametri 108 və 89 millimetrlik qaz xətləri dayaqlar üzərinə qaldırılır və s. Bunlardan əlavə, Şəmkir şəhərinin 2 küçəsində, Sərxan yaşayış massivində, Dəllər qəsəbəsində, Mahmudlu, Xuluf və Könüllü kəndlərində köhnə qaz xətləri müasir standartlara cavab verən D57 millimetrlik borularla əvəz olunub. Korroziyaya uğramış 1000 metrlik qaz xətti yenilənib, 8 kilometrə yaxın qaz şəbəkəsində əsaslı bərpa işləri aparılıb. Təkcə 2025-ci il ərzində Şəmkir şəhəri, Kür qəsəbəsi və Qasımalılar kəndində ümumilikdə 2500 paqonmetr uzunluğunda yeni qaz xətləri çəkilib, müasir tipli 8  Qaz Tənzimləyici Məntəqə (ŞQTM) quraşdırılıb, qaz sızmaları operativ qaydada aradan qaldırılıb, 7503 abonentin qaz sayğacı yenisi ilə əvəzlənib. Görülən tədbirlər qazın sabit təzyiqlə ötürülməsini təmin etməklə yanaşı, pik saatlarda yarana biləcək təchizat problemlərinin qarşısının alınmasına imkan yaradıb.



Həyata keçirilən layihələr yalnız qaz təsərrüfatının texniki cəhətdən yenilənməsi ilə məhdudlaşmamış, yaşayış məntəqələrində təhlükəsizliyin artırılmasına, şəhərsalma prinsiplərinin tətbiqinə və əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət etmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Pambığı "ağ qızıl" edən günəş, su, bir də əməkdir

### Tərtərli fermerlər bu hesaba pambıqçılıqda yüksək göstəricilərə nail olurlar

**Qarşıdakı beş il ərzində kənd təsərrüfatı sektorunda dinamik inkişafı nəzərdə tutan dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi Tərtər rayonunda da diqqət mərkəzindədir. Xüsusən pambıqçılar imkanlarını yenidən götür-qoy edir, cari il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə deyildiyi kimi, pambıq plantasiyalarında məhsuldarlığı 5 tona çatdırmağı planlaşdırırlar.**



Hüsənli kəndindən olan fermer Firuz Rzayevlə elə öz təsərrüfatında görüşüb söhbət etdik. "Yeni dövlət proqramı kənd təsərrüfatının bütün sahələrinin sürətli inkişafını nəzərdə tutur. Bu inkişafa əkin sahələrini genişləndirmədən yeni mütərəqqi texnologiyaları tətbiq etməklə nail olmalıyıq" - dedi. Fermer Firuz Rzayev onu da qeyd etdi ki, məhsuldarlığın artırılmasında qabaqcıl təcrübənin yayılması  böyük əhəmiyyət kəsb edir. Məsələn, eyni kənddə, qonşu torpaqlarda bir sahibkar hər hektardan 45-50, digəri isə 30-32 sentner pambıq götürür. Eyni toxum, su, gübrələr və dərmanlar, nəticələr isə müxtəlifdir.

Pambıqçı bu məsələnin səbəbini belə izah etdi:

- Bizim ailə uzun illər təsərrüfatla məşğul olub. Gördüyüm budur ki, pambıqçılıqda digər sahələrə nisbətən əl əməyi daha çoxdur. Məsələn, biz özümüz becərmə zamanı 3 briqada ilə işləyirik. Hər briqadada 15-20 nəfər çalışır. Onlar sübh tezdən sahələrə gəlir və işə başlayırlar. Əgər həmin vaxt sahibkar evində yatırsa, yaxud günəşdən gizlənib kölgədə dincəlirsə, briqada üzvləri nə qədət məsuliyyətlə işləsələr də, istənilən nəticə alınmayacaq. Kultivasiyadan sonra cərgəaralarını əllə becərənlərə "alaqçılar" deyirik. Fikrimcə, bu, yanlış ifadədir. Ona görə ki, kətmənçilər yalnız alaq otlarını vurmalı deyillər, onlar alaq oldu-olmadı, cərgəaralarını, el arasında deyildiyi kimi, "döyməlidirlər". Bu zaman torpaq yumşalır və bitki yaxşı inkişaf edir.

Öyrəndik ki, fermer cari mövsüm 32 hektar sahədə pambıq əkib. "Prime Cotton" MMC ilə müqavilə bağlayıb. Biz təsərrüfatda olarkən şirkətin ərazi üzrə aqronomu Şamo Ələkbərov da burada idi. Bildirdi ki, Firuz Rzayev şirkət üzrə ən yüksək göstəricilərə nail olan sahibkarlardandır. Ötən mövsüm becərdiyi 28 hektar pambıq sahəsinin hər hektarından 46 sentner məhsul götürüb. İndi daha yüksək göstərici əldə etmək istəyir. İndiyəcən bütün lazimi tədbirləri yüksək səviyyədə həyata keçirib.

Söhbət zamanı öyrəndik ki, hazırda pambığın məhsuldarlığı ilə yanaşı, onun keyfiyyəti də sahibkarların gəlirlərinə müsbət təsir göstərir. Alaqlı sahədən toplanan, nəmliyi çox olan pambıqla təmiz, səliqəli sahədən yığılan pambığın arasında böyük fərq olur. Gələcəkdə pambığın növünün müəyyənləşdirilməsində texnologiyanın köməyindən daha çox isitfadə ediləcək. Bu isə bəzən yaranan mübahisəli məsələləri aradan qaldıracaq. Pambığın keyfiyyətini insan deyil, müasir texnologiya özü qiymətləndirəcək. Təmiz məhsul tayalara vurulmadan birbaşa emala göndəriləcək.

Pambığın becərilməsinə görə aldığı subsidiya ilə bağlı fermerə sual verdik. Bildirdi ki, bu sahədə dövlətimizin dəstəyini daim hiss edirik: "Pambığın becərilməsi çox xərc aparan işdir. Mövsümün sonunda şirkətin çəkdiyi xərclər çıxandan sonra bəzən o qədər də yüksək gəlir qalmır. Subsidiya isə onu kompensasiya edir və işləməyə yeni stimul verir. Ancaq burada da bəzi uyğunsuzluqlar aradan qaldırılsa, yaxşı olar. Məsələn, ən yüksək məhsuldarlığa nail olan fermerlə zəif nəticə göstərən eyni səviyyədə götürülür. Subsidiyada fərq olsa, zəif işləyənin də məsuliyyəti artar, yəni öhdəsində olan qızıl dəyərində torpağın qədrini daha çox bilər.

Təsərrüfatda əkin sahələrinin suvarılması subartezian quyularının vasitəsilə aparılır. Çiyid səpini vaxtı aramsız yağışlar yağmasına baxmayaraq, bu mühüm kampaniya da optimal müddətdə başa çatdırılıb.

Yenə də təcrübəli fermerin fikirlərini öyrəndik:

- Nədənsə gileylənmək, bəhanələr gətirmək təsərrüfatçıya yad olan xüsusiyyətlərdir. Çətindirsə, ikiqat işləyirik. Qarşımıza məqsəd qoyuruqsa, məqsədimizə çatmamış dincəlmirik. Bununa belə pambıqçılıqda hava şəraiti nəzərə alınmalı və uyğun tədbirlər görülməlidir.

Xatırladaq ki, ötən il Tərtər rayonu üzrə 2796,7 hektardan 10,5 min tondan çox pambıq götürülmüş, məhsuldarlıq 37,65 sentner olmuşdur. Hazırda pambıqçılıqda çox məsul dövrdür. Rayon ərazisində fəaliyyət göstərən üç şirkət - "Prime Cotton" MMC, "Azərpambıq ASK" MMC və "Elakoton" MMC ilə müqavilə bağlamış 436 istehsalçı 2141,57 hektar sahədə bol məhsul üçün çalışır.

*Svetlana BAĞIROVA,*
*"Yeni Tərtər" qəzetinin redaktoru*

## Goranboyda sənaye müəssisələri fəaliyyətlərini genişləndirməyi hədəfləyiblər

**Goranboy kənd təsərrüfatı rayonu olmasına baxmayaraq, burada bir neçə sənaye müəssisəsi də fəaliyyət göstərir. Onların sırasında "Master Metal Company" və "Goran Agro Avadanlıqlar Zavodu" MMC-ləri misal çəkmək olar.**



"Master Metal Company" MMC-də məişət avadanlıqları, müxtəlif təyinatlı masa və oturacaqlar, "Goran Agro Avadanlıqlar Zavodu" MMC-də isə kənd təsərrüfatı təyinatlı avadanlıqlar, müxtəlif ölçülü qoşqular, eləcə də digər metal məmulatlar istehsal edilir.

Bu günlər RİH-in başçısı M.Quliyev müəssisələrdə istehsal sahələrinin vəziyyəti ilə tanış olmuşdur. Ona istehsal sahələrinin fəaliyyəti, tətbiq olunan müasir texnologiyalar, istehsal gücü, məhsul çeşidlərinin artırılması istiqamətində görülən işlər və gələcək inkişaf planları barədə ətraflı məlumat verilmişdir.

İstehsal sahələrinə baxış zamanı ölkədə həyata keçirilən iqtisadi siyasət, o cümlədən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası istiqamətində görüən işlər ətraflı müzakirə edilmişdir. Ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi və aqrar sahəyə xidmət göstərən istehsal müəssisələrinin fəaliyyətinin gücləndirilməsi istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılmışdır. Qeyd edilmişdir ki, müasir istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi və istehsal potensialının artırılması regionların sosial-iqtisadi inkişafına və yeni iş yerlərinin yaradılmasına mühüm töhfələr  verə bilər.

Sonda hər iki müəssisənin rəhbəri onlara göstərilən diqqət və qayğıya, dövlət tərəfindən sahibkarlığın inkişafına göstərilən ardıcıl dəstəyə görə  minnətdarlıqlarını bildirmiş və qeyd etmişlər ki, onlar yaradılan bu imkandan istifadə etməklə məhsul çeşidinin sayının artırılmasına çalışacaq, istehsalın həcmini artırmaqla müəssisələrin fəaliyyətini daha da genişləndirəcəklər.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Lənkəran Dövlət Universiteti aqrar kadrların hazırlanmasına diqqəti artırır

**Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev Lənkəran Dövlət Universitetinə səfər edib. Səfər çərçivəsində universitet rəhbərliyi ilə keçirilən görüşdə aqrar təhsil, elmi tədqiqatlar, innovativ texnologiyaların tətbiqi və kənd təsərrüfatı sahəsi üçün yüksəkixtisaslı kadr hazırlığının inkişaf perspektivləri müzakirə olunub.**



Səfərin əsas məqsədi universitetin aqrar istiqamətlər üzrə mövcud elmi-praktiki bazası ilə tanış olmaq, tədris prosesində istifadə olunan infrastrukturun imkanlarını qiymətləndirmək, eləcə də gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək olub.

Proqram çərçivəsində agentliyin sədri universitetin Baytarlıq Klinikasında yaradılmış şəraitlə yaxından tanış olub. Klinikada fəaliyyət göstərən süni mayalanma, rentgen, cərrahiyyə, diaqnostika, müayinə və digər ixtisaslaşmış otaqlara baxış keçirilib, burada tətbiq olunan müasir avadanlıqlar və laboratoriya imkanları barədə ətraflı məlumat verilib. Bildirilib ki, klinika tələbələrin nəzəri biliklərinin praktik bacarıqlarla möhkəmləndirilməsinə, eyni zamanda regionda baytarlıq xidmətlərinin keyfiyyətinin artırılmasına mühüm töhfə verir.

Daha sonra Sərdar Hacıyev universitetin Aqronomluq ixtisası üzrə təhsil alan tələbələrinin praktiki hazırlıq keçdiyi təcrübə sahələrinə baş çəkib. Burada sitrus bağları, ting yetişdirilməsi sahələri və tələbələrin bitkiçilik istiqamətində əldə etdikləri praktik bilik və bacarıqlar nümayiş etdirilib. Qeyd olunub ki, bu cür təcrübə sahələri tələbələrin müasir aqrotexniki yanaşmaları yerində mənimsəməsinə, istehsalat prosesinə daha yaxından inteqrasiya olunmasına və gələcək peşə fəaliyyətinə hazırlığının gücləndirilməsinə xidmət edir.

Görüş zamanı kənd təsərrüfatı sahəsində ixtisaslı kadr hazırlığının daha da təkmilləşdirilməsi, tələbələrin praktik bilik və bacarıqlarının artırılması, elmi tədqiqatların istehsalatla əlaqələndirilməsi, təcrübə proqramlarının genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Tərəflər Aqrar Xidmətlər Agentliyi ilə Lənkəran Dövlət Universiteti arasında gələcəkdə baytarlıq, aqronomluq və digər kənd təsərrüfatı istiqamətləri üzrə birgə təlimlərin, elmi-praktiki tədbirlərin, təcrübə proqramlarının və innovativ layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, belə əməkdaşlıqlar müasir bilik və texnologiyaların tətbiqinə, peşəkar mütəxəssis hazırlığının gücləndirilməsinə və ölkənin aqrar sektorunun davamlı inkişafına mühüm töhfə verəcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Macəra dolu yolun sonunda möhtəşəm mənzərə - Qələbin şəlaləsi

**Lerik yerli və xarici turistlərin ən çox üz tutduğu bölgələrdən biridir. Xəzər sahillərindən dağlara doğru yüksələn bu füsunkar diyar müasir hotelləri, kənd evlərində yaradılan ekoturizm imkanları, əsrarəngiz təbiəti, uca dağları, sıx meşələri, saysız-hesabsız bulaq və şəlalələri ilə seçilir. Lerikin təbii gözəllikləri ilin bütün fəsillərində fərqli çalarlarla ziyarətçiləri özünə cəlb edir.**



Bu dəfə yolumuzu Lerikin füsunkar təbiəti qoynunda yerləşən Qələbin şəlaləsinə saldıq. AZƏRTAC-ın "Mən turist olsaydım" rubrikası altında dərc olunan məqalədə bildirilir ki, şəlaləyə çatmaq üçün əvvəlcə İpək yolundan ayrılaraq Lerik istiqamətində təxminən 15 kilometr hərəkət edib, Piran kəndinə çatırıq. Buradan sonra yolun relyefi nəzərə alınaraq "Niva" markalı minik avtomobili ilə hərəkəti davam etdiririk.

Qələbin kəndinə aparan yol mürəkkəb relyefi ilə seçilir. Sıldırım eniş-yoxuşlar, kəskin döngələr və meşələrin arasından keçən dağ yolları səyahətə xüsusi həyəcan qatır. Təxminən 10 kilometrlik marşrutdan sonra avtomobil yolu başa çatır.

Bundan sonra qısa, lakin yaddaqalan piyada yürüşü başlayır. Təxminən 300 metr meşə cığırı ilə irəlilədikdən sonra ağacların arasından şəlalənin gur səsi eşidilir. Bir neçə dəqiqə sonra isə Qələbin şəlaləsi bütün əzəməti ilə qarşımızda canlanır.

Dəniz səviyyəsindən təxminən 1000 metr yüksəklikdə yerləşən şəlalə saf dağ bulaqlarından qidalanır. Qış aylarında suyun həcmi artır və gur axını ilə möhtəşəm mənzərə yaradır. Yayın ən isti günlərində belə qurumayan şəlalə qışın sərt şaxtalarında da tam donmur. Məhz bu xüsusiyyət Qələbin şəlaləsini ilin bütün fəsillərində cəlbedici edən əsas amillərdəndir.

Qələbin şəlaləsi son illərdə Lerikə gələn turistlərin ən çox ziyarət etdiyi təbiət məkanlarından birinə çevrilib. Fotoqraflar, təbiət həvəskarları və macəra sevən səyahətçilər üçün bu məkan əsl kəşfdir. Buraya gələn hər kəs möhtəşəm mənzərənin şahidi olmaqla yanaşı, təbiətin sakitliyi və gözəlliyi ilə baş-başa qalmaq imkanı əldə edir.

Lerikə səfər edənlər rayonun bu ecazkar təbiət incisini görmədən geri qayıtmırlar. Qələbin şəlaləsi öz gözəlliyi və yaratdığı unudulmaz təəssüratlarla ziyarətçiləri heyran edir.




**Günahsızlar**

# 37-nin qanlı salnaməsi: *Əhməd Triniçin faciəvi taleyi*

**1930-cu illərin totalitar sovet rejimi bəşər tarixinin ən amansız, ən qanlı səhifələrindən biri idi. Stalin repressiyaları, xüsusən də 1937-ci ilin "böyük təmizləmə" dalğası fərqli düşüncəni, müstəqil iradəni, parlaq zəkanı kökündən vurub yox etmək məqsədi güdürdü. Bakının küçələrində hər gecə dolaşan qara maşınlar, NKVD-nin zirzəmilərindən gələn fəryad səsləri və hər səhər qəzetlərdə "ifşa olunan" onlarca ziyalının adı o dövrün dəhşətlərinin real mənzərəsi idi.**

Bu repressiya maşını təkcə yerli ziyalıları deyil, tale yolları Azərbaycana düşən, onun mədəniyyətinə və mətbuatına sidq ürəklə xidmət edən mühacir yazarları da öz burulğanına çəkirdi. Belə dramatik, ziddiyyətli və faciəvi talelərdən biri də ömrünü Azərbaycan publisistikasına, teatrına və nəşriyyat işinə həsr etmiş, lakin Mircəfər Bağırovun şəxsi intiqam hədəfinə çevrilərək ilk qurbanlarından olmuş Əhməd Bədi Triniç idi.

Əhməd Rəcəb oğlu Triniç 1893-cü ildə Osmanlı imperiyasının Üsküp (indiki Skopye) şəhərində ziyalı bir alban ailəsində anadan olmuşdur. 1912-ci ildə Balkan müharibəsi zamanı ailəsi ilə birlikdə Türkiyəyə gəlmiş, burada qaçqın kimi dövlət hesabına liseyə daxil olmuşdur. Liseyi bitirdikdən sonra hərbi xidmətə göndərilmiş, Dardanel cəbhəsində döyüşlərdə iştirak etmişdir. 1916-cı ilin avqustunda Əhməd Triniç Kürdüstan cəbhəsində rus ordusuna əsir düşmüş, əvvəlcə Tiflisə, sonra Kostroma quberniyasının Narıxta şəhərinə göndərilmişdir.

Oktyabr inqilabından sonra Əhməd Triniç Türkiyəyə qayıtmaq ümidi ilə Bakıya gəlmişdir. Lakin burada türk ordusunun baş qərargahının üzvü Rövşən bəy ona Türkiyəyə qayıtmağa izin verməmişdir. O, məcburiyyətdən Bakıda qalmış, türk dilindən evlərdə dərs keçməyə başlamışdır. Tədqiqatçıların yazdıqlarına görə, mart soyqırımı zamanı "İsmailiyyə" binasında keçirilmiş mitinqdə çıxış etmişdir. Bakıda daşnakların təqibinə məruz qalan Əhməd Triniç Dağıstana getmişdir. Bir müddət sonra Dağıstandan Yelizavetpol şəhərinə gələrək, Qubada Rövşən bəy tərəfindən həbs edilmiş və bolşeviklərin xeyrinə casusluqda günahlandırılaraq güllələnməyə məhkum edilmişdir. Hökm icra edilməyə başlamadan Əli bəy Zizikski Rövşən bəyə əllərinin onun qanına bulaşdırmamasını, türklərin özlərinin onun dərsini verməsini demişdir.

Bakıda Triniç "İttihad" qəzetində fəaliyyətə başlamışdır. Aprel işğalınadək "Azərbaycan füqərası" qəzetində çalışmış, işğaldan sonra bu qəzet "Kommunist" adı ilə nəşr edilmişdir. Əhməd Triniç onun redaktoru olmuşdur. O, 1919-cu ildə İttihad partiyasının üzvü idi. 1919-cu il fevral ayının 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafizə dəstəsinin yaradılması barədə qanun qəbul edildikdən sonra Əhməd Triniç də 200 nəfərlik mühafizə dəstəsinin tərkibində olmaq üçün parlamentə müraciət etmişdir.

Bakıya gəldiyi ilk illərdən etibarən o özünün yüksək intellekti, dillərə vaqif olması və iti qələmi ilə seçilmişdir. Azərbaycanın istiqlal mübarizəsi dövründə parlamentin mühafizə dəstəsində xidmət etsə də, sovet hakimiyyətinin qurulmasından sonra bolşevik ideologiyasını qəbul edərək partiya sıralarına qoşulmuşdur. Triniç ideoloji baxımdan kəskin, sarsılmaz və partiya xəttinə fanatikcəsinə sadiq bir publisist kimi tanınmışdır. Sovet Azərbaycanında çox sürətlə mühüm postlara yüksələn Əhməd Triniçin fəaliyyəti təkcə qəzetçiliklə məhdudlaşmırdı. O, "Azərnəşr"in direktoru olaraq kitab çapının, savadlılığın artırılmasında böyük işlər görmüşdü. Azərbaycan Dövlət Dram Teatrının direktoru vəzifəsində çalışarkən milli teatrın inkişafı, aktyorların rifahı və teatr binalarının təmiri üçün böyük büdcələrin ayrılmasına nail olmuşdu. O, dövrünün ən böyük sənətkarları ilə yaxın ünsiyyətdə olmuş, mədəni mühitin inkişafında birbaşa iştirak etmişdir.

Arxiv materialları göstərir ki, Əhməd Triniç sovet ideologiyasını Azərbaycanda bərqərar etmək üçün ən sərt addımlardan belə çəkinməyən bir partiya xadimi olub. Yazıçılar İttifaqının iclaslarında onun barışmaz, aqressiv çıxışları stenoqramlarda qorunub saxlanmışdır. Böyük şair Hüseyn Cavidi "sovet gerçəkliyindən uzaqlaşmaqda" ittiham edən, ona qarşı kobud və qaba tənqidlər səsləndirən Triniç rəhbərlik tərəfindən daim rəğbətlə qarşılanırdı. Məmməd Səid Ordubadinin xatirələrində o, "yazıb-oxumağı zəif bilən, lakin mübahisəni və təzyiq etməyi sevən" bir bürokrat kimi xarakterizə olunur. Lakin teatrın inkişafı, yeni binaların tikilməsi və milli mətbuatın texniki bazasının qurulmasında onun təşkilatçılıq qabiliyyətini də danmaq olmazdı. Əhməd Triniçin "Kommunist" qəzetinin 1933-cü il 24 aprel tarixli sayında "Teatromuzun vəzifələri və gələcək inkişaf



yolları" məqaləsi dərc olunmuşdur. Azərbaycan Dövlət Dram Teatrının direktoru Əhməd Triniç hökumətin milli teatra göstərdiyi qayğıdan söhbət açaraq belə yazırdı: "Xalq Komissarları Şurasının son qərarına görə Azərbaycan Dövlət Dram Teatrosu üçün yeni bina tikmək tədbirləri görülməsi ilə bərabər, teatromuzun təkcə qarderobuna yüz min manat buraxılmışdır".

Yazılanlara görə, Əhməd Triniçlə Mircəfər Bağırovun yolları hələ 1918-ci ildə Qubada kəsişmişdi. Triniç əvvəllər türk ordusunun zabiti olmuş, sonra İttihad partiyasının məsul katibi kimi Qubada və Bakıda bolşeviklərə qarşı fəal mübarizə aparmışdı. Eyni dövrdə Mircəfər Bağırov da Qubada Azərbaycan Xalq Cümhuriyyətinin mahal komissarının köməkçisi işləyirdi. Hər iki şəxs bir-birinin sovet hakimiyyətindən əvvəlki "əksinqilabi" fəaliyyətini çox yaxşı bilirdi. Bağırov rəhbərliyə yüksəldikdən sonra onun keçmişini bilən belə şahidlərin varlığı onun üçün böyük təhlükə idi. Bu bir növ nüfuz mübarizəsi idi.

Mircəfər Bağırov 1933-cü ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi təyin edildikdən sonra respublikada mütləq tək hakim olmaq istəyirdi. Əhməd Triniç isə "Kommunist" qəzetinin redaktoru, "Azərnəşr"in və teatrın rəhbəri kimi mədəniyyət, ideologiya və mətbuat sahəsində çox güclü fiqura çevrilmişdi. Onun partiya daxilində sərbəstliyi, kəskin xarakteri və Bağırovun diktəsinə tam boyun əyməməsi aralarındakı şəxsi düşmənçiliyi yüksək həddə çatdırmışdı.

1936-cı ilin aprelində Əhməd Triniç həbs edilir. İşə Mircəfər Bağırov qarışır. O, Triniçi tamamilə sıradan çıxarmaq üçün keçmişini araşdırır və arxivdən onun əleyhinə kəsərli bir sənəd tapır. 1936-cı ilin aprelində keçirilən partiya bürosunun iclasında Bağırov Əhməd Triniçin 1918-ci ildə yazdığı bir ərizəsini nümayiş etdirir. Həmin sənəddə Triniçin Müsavat hökumətinin parlamentini qorumaq üçün mühafizə dəstəsinə (müsavat ordusuna) qəbul olunmaq barədə xahişi yer alırdı. Bu sənəd o dövr üçün birbaşa "vətənə xəyanət" və güllələnmə demək idi.

O zaman Zaqafqaziya Xalq Daxili İşlər Komissarlığının Azərbaycan üzrə idarə rəisi Yuvelyan Sumbatov-Topuridze 265 səhifədən ibarət istintaq materialını respublika rəhbərinə təqdim edir. Qoşma məktubda deyilirdi: "İstintaqa dəvət edilmiş 20 şahiddən 11-nin ifadələrinə görə Triniç Əhməd Bədi ifşa olunmuşdur. Belə ki, o, 1918-ci ildə türk dəstə komandiri vəzifəsində Nizova, Çaxçaxlı, Həzrə kəndlərində və Quba şəhərində silahsız dinc əhalini kütləvi şəkildə vəhşicəsinə işgəncələrlə həlak etmişdir. Həmçinin Əhməd Triniç mülkədar Zizikski ilə birlikdə sovet xəzinəsini talan etmişdir.

Ə.Triniç bolşevik Müxtədir Aydınbəyovun qətlində də təqsirləndirilir. Belə ki, Müxtədir yoldaş 1918-ci ildə türklər Quba şəhərində olarkən öldürülmüşdür. Onun həbsə alınmasını və Quba dustaqxanasına salınmasını öz gözlərilə görmüş şahidlərin ifadələrinə görə, Müxtədir yoldaş Triniçin göstərişi ilə Həzrə kəndində həbs olunmuş və Quba dustaqxanasına aparılmışdır... 1919-cu ilin əvvəllərindən Triniç İttihad partiyasının üzvü olmuşdur. Bu partiyanın məsul katibi vəzifəsində çalışmışdır. Yuxarıdakıları əsas götürərək belə hesab edirəm ki, Triniç 1919-cu ilin əvvəllərinədək bolşevik dəstələrinə qarşı türk-müsavat qoşunlarının cəza əməliyyatlarında bilavasitə iştirak etmişdir".

Mircəfər Bağırov məktubun üzərinə bu sözləri yazmışdır: "Şəxsən Sumbatov yoldaşa. Xahiş edirəm sabahdan gec olmayaraq bütün materiallar barədə mənə məlumat verəsiniz. Eyni zamanda təklif edirəm ki, bu iş üzrə bütün dindirilmə və sorğu-suala xitam verəsiniz".

Mənbələrdə göstərilir ki, 1936-cı ilin aprelində daxili işlər orqanları rəhbərləri Moskvadan ittifaq komissarı Yejovun operativ məxfi əmrini alırlar. Həmin əmrə görə, antisovet partiyaların üzvləri "üçlük" tərəfindən işlərinə baxılan kimi güllələnməlidirlər. Lakin onu güllələyə bilmirlər. Əhməd Triniç həbsxanada intihar edir. Bu hadisə həm də Azərbaycan ziyalılarına - Əhməd Cavada, Mikayıl Müşfiqə, Hüseyn Cavidə qarşı törədiləcək daha böyük kütləvi qətliamların dəhşətli bir anonsu olur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



**Sağalmayan yaralar**

# Bir qərarla iki qardaşı bir gündə güllələyiblər

**1937-ci il noyabrın 9-da acı bir xəbər Ağsunun Gəgəli kənd (o vaxt Kürdəmir rayonunun tərkibində idi) camaatının ovqatını təlx etdi. "Gecə Musa kişinin oğlanları Polad bəylə Hacıbaba bəyi hökumət adamları yenə apardılar". Bütün günü pıçıltıyla doqqazları dolaşan bu xəbər bir azdan kolxoz idarəsinin həyətindən tutmuş kənddən xeyli aralıda yerləşən dəyirmana, xırman yerinə, yataqdakı çobanlaradək çatdı.**

Bolşevik məmurlarının qorxusundan kənd adamları nə Poladın, nə də Hacıbabanın evinə tərəf boylana bilirdilər. Axşamdan xeyli keçmiş - gecənin zil qaranlığında qonşulardan bir-ikisi çəpərdən gizlicə həyətə keçib evin qapısına yaxınlaşsa da, heç kəsi tapa bilmədi. "Yəqin gəlinlər uşaqları da götürüb qayınatasıgilə gediblər" yozumuna bel bağlamaqdan başqa çarə yox idi.

Polad bəy də, Hacıbaba bəy də çoxuşaqlı ailədə böyümüşdülər. Ataları Musa kişi ev-eşik olandan



maldarlıqla məşğul olmuşdu. Uşaqları - Polad (1881), Babacan (1882), Məhyəddin (1883), Əlimusa (1884), Məmmədrza (1885) hər işdə atalarına kömək edirdilər. Polad ailənin ilki, qardaşların böyüyü idi. Onlar böyüdükcə qoyun-quzu, malqara otarıb zəhmətləri hesabına gün-güzəran qurmuşdular. Biri o birinin əlindən tuta-tuta təsərrüfatlarını genişləndirmiş, var-dövlət sahibi olmuşdular. Qardaşlar ömürləri boyu kənddən çıxmamışdılar, nə təhsil görmüş, nə məktəbə getmişlər. Nə doğum kağızları olmuş, nə də pasportları. 1929-cu ildə qardaşlar "kulak" adı ilə məşhər ayağına çəkiləndə, barələrində yuxarılara yerli-yersiz danos yazılanda ailəni yaxından tanıyan kənd şurasının işçiləri rəsmi arayışlarda təxmini hesablamalarla qardaşlara təvəllüd tarixləri yazmışlar.

Hamı bilirdi ki, Polad da, qardaşı Hacıbaba da mülkədar kimi çoxdan hökumətin "qara siyahı"sına düşüblər. Hacıbaba Cəbiyev kolxoz quruculuğunun əleyhinə çıxdığından hələ 1927-ci ildə səsvermə hüququndan məhrum edilmişdi. 1933-cü ildə "kulak" adı ilə malı, mülkü əlindən alınmaqla 3 il müddətinə sürgünə göndərilmişdi. Üstəlik, 7 hektar əkin yerini, kotanını, malasını, suvuranını, 2 dəvəsini, 2 camışını, 3 atını, 2 inəyini, 75 qoyununu, 15 keçisini, 3 öküzünü əlindən alıb kolxoza vermişdilər.

Sürgündən qayıdan Hacıbaba gecə-gündüz əlləşərək yenə özünə gün-güzəran qurmuşdu. Yarım hektar əkin yeri, atı, inəyi, ulağı vardı. Daim təsərrüfat işlərində çalışır, 7 nəfərlik ailəsinin dolanışığına can atırdı. Amma əqidəsindən də dönmürdü, orda-burda komsomolçuların, bolşeviklərin əleyhinə danışırdı. Odur ki, heç bir il keçməmiş "qolçomaq, müttəhim, tərəfsiz Hacıbaba Musa oğlu Cəbiyev yeni quruluşun və kolxozlaşmanın əleyhinə təbliğat apardığına görə" 1937-ci il noyabrın 9-da yenidən həbs olundu.

Bəs Hacıbaba kişi ilə bir gecədə yoxa çıxan böyük qardaşı - 56 yaşlı Polad bəyin günahı nə idi? Hamının böyük ehtiram göstərdiyi, hörmətini saxladığı Polad kişi əvvəl artelə, sonra da kolxoza üzv yazılmaqdan imtina etdiyinə görə 1932-ci ildə 3 il müddətinə həbsxanaya salınmışdı. Qayıtdıqdan sonra ailəsini başına yığıb əkin-biçinlə məşğul olurdu. NKVD-nin qorxusundan kolxoza da üzv yazdırmışdılar və o üzdən yeri gəldikcə kolxozun mövsümi işlərində də çalışırdı. Bunu da gözləri götürməyən bolşevik-kommunistlər, komsomolçular elin, obanın hörmətli adamlarını, o cümlədən Polad bəylə Hacıbaba bəyi nüfuzdan salmaqla camaatın gözünün odunu alırdılar.

Repressiyaya məruz qalan qardaşların "şəxsi işlər"indəki dindirmə protokollarında göstərilir ki, guya Polad Cəbiyev kiçik qardaşı Hacıbaba ilə birləşib yaxın qohumlarını, dost-tanışlarını tərəflərinə çəkərək camaatı ruhdan salır, kolxoz quruluşuna qarşı çıxırlar. Hətta Polad qardaşı Hacıbaba ilə birləşib özbaşına dövlətin torpağına toxum səpərək şəxsi təsərrüfat yaradıb, şura hökumətinə qarşı çıxan banditləri, qaçaqları uzun müddət ərzaqla təmin edib, 1935-ci ildə məhv edilmiş şamaxılı quldur Molla Sadıxın bir neçə il hökumətdən gizlənməsinə şərait yaradıb, eləcə də kəndin bəzi müsavatçılarını Şamaxı rayonundakı Dəbəgünəşli kəndindən olan müsavatçı Şeyxkərəmlə görüşdürüb, əlaqə qurub, kolxozçular arasında təbliğat aparıblar ki, köhnə quruluşa qayıdılsın və s.

Gəgəli kəndinin adlı-sanlı bəylərindən Polad və Hacıbaba Cəbiyevlərin düyünə düşən taleyi müdhiş payız gecəsi - noyabrın 9-da, cəmi-cümlətanı 20 gündən sonra yeni qurulmuş hökumətin "ədalət məhkəməsi"ndə həll olunmuşdu. Azərbaycan SSR XDİK dairə Fövqəladə Komissarlığı Polad və Hacıbaba Cəbiyev qardaşlarının əmlakları müsadirə olunmaqla güllələnməyə məhkum edilmələri haqqında qərar çıxarmışdır.

Amma Polad kişinin, eləcə də qardaşı Hacıbaba bəyin ailəsi, qohumları, yaxınları uzun müddət bu faciədən, onların öldüsündən-qaldısından xəbərsiz olublar. Polad bəyin nəvəsi Adil Osmanov: "Anam həmişə danışardı ki, atası, əmisi və yaxın qohumları qolçomaq adı ilə gedər-gəlməzə göndəriləndən sonra kənddə qalan əmilərini, dayılarını, xüsusən ailə üzvlərini kolxozda, arteldə işləməyə qoymurdular. Dəfələrlə günün günorta çağı evimizdən xalça-palazımızı, həyətdən mal-qaramızı götürüb aparırdılar ki, siz mülkədar ailəsisiniz". Bu hələ harasıdır?! Polad bəyin yeganə oğlu Məhəmmədi kənddəki məktəbə yaxın buraxmırdılar, anasını isə kolxoza üzvlüyə yazmırdılar. Ona görə də məcbur olub gizlicə dost-tanış vasitəsilə babalarının adını özlərinə soyad yazdırmışlar. Yalnız bundan sonra - Polad bəyin həyat yoldaşı Xədicə və uşaqları Musayev soyadını götürdükdən sonra Məhəmməd və bacısı Lumu qonşu kənddəki məktəbə, Xədicə kolxoza işə düzəlmişdilər.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda Polad kişinin yeganə oğul yadigarı Məhəmməd "xalq düşməninin oğlu" adını üstündən götürmək üçün rayon hərbi komissarlığına rəsmi ərizə ilə müraciət edərək könüllü müharibəyə getmişdi. Müharibənin od-alovundan keçmiş, çətin əməliyyatlarda belə özünü irəli verərək yoldaşlarına kömək əli uzatmaqla qorxmazlıq nümunəsi göstərmişdi. Bu fikirlər Məhəmmədin 1943-cü ilin qışında baçısı Lumuya yazdığı məktubdandır. Çevikliyinə və döyüş əməliyyatlarını yerinə yetirdiyinə görə hərbi hissə komandanlığı tərəfindən leytenant rütbəsinə layiq görüldüyünü bildirən Məhəmməd Musayev Gəgəli kəndinə, bacısına ünvanladığı üçüncü məktubun içərisində muştuluq kimi zabit geyimində, leytenant rütbəsində şəklini də göndərmişdi. Ailənin mənəvi pasportuna çevrilən bu şəkli və məktubu bacısı və uşaqları neçə illərdir ki, ən əziz xatirə kimi saxlayırlar. "Bundan sonra Məhəmməddən məktub almadıq, onun nə qaldısından, nə də öldüsündən xəbər tuta bildik. Müharibədən sonra çox yerə müraciət etdik, bəlkə həlak olub, bəlkə əsir düşüb, bəlkə itkindir...heç bir məlumat verən olmadı". Ömrünün nəvəli-nəticəli günlərini yaşayan Lumu xanım repressiya qurbanı atası Polad bəyə qarşı olan haqsızlığı, əsgər qardaşı Məhəmmədin öldüsündən, qaldısından xəbər tuta bilməməsini özünə bağışlaya bilmirdi. Baxmayaraq ki, Lumu xanım, eləcə də yaxınları sovet dönəmində müharibədən qayıtmayan qardaşı Məhəmmədin axtarışları ilə yanaşı, atası Polad bəyin, əmisi Hacıbaba bəyin taleyi ilə də çox maraqlanmışdılar. Yalnız ailənin yaxın qohumu Qaroğlan Musayevin 1958-ci ildə Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinə göndərdiyi müraciət-sorğudan sonra məlum olmuşdur ki, Polad Cəbiyev və Hacıbaba Cəbiyev həyatda yoxdurlar. Hər iki qardaş Azərbaycan Respublikası Xalq Daxili İşlər Komissarığı dairə Fövqəladə Komissiyasının qərarı ilə 1937-ci il noyabrın 29-da gecə saat 01:10 dəqiqə işləmiş Bakıda güllələnmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qəbələdə möhtəşəm Vyetnam musiqi gecəsi

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə XV Qəbələ Beynəlxalq Musiqi Festivalının ikinci gününün də proqramı zəngin və rəngarəng idi.



AZƏRTAC xəbər verir ki, qonaqlar sırasında Vyetnamdan gələn "Bronze drum" ansamblının festivala dəvət alması heç də təsadüfi deyil. Mədəniyyətlərarası dialoqun mühüm platformasına çevrilən Qəbələ Beynəlxalq Musiqi Festivalında keçmişdə olduğu kimi, bu gün də müxtəlif ölkələrin, fərqli mədəniyyətlərin ən parlaq təmsilçiləri Azərbaycanın bu qədim bölgəsində bir araya gəlirlər.

Heydər Əliyev Konqres Mərkəzində təşkil edilən konsertdə ansambl "Vyetnamın milli vokal janrlarına İntroduksiya" proqramı çərçivəsində zərb alətlərinin əks-sədası altında T.Giang - "Məhsul yığımı mövsümünün hekayəsi", H.Xuan - "Bahar gəlir", X.Khai - "Vətənin melodiyası", X.Khai - "Vətənin duyğuları", H.Xuan - "Mərkəzi Yaylalar Günəşi qarşılayır", "Then" oxuması, D.Nho - "The Pieu scarf", Vyetnam xalq musiqisi "Inh La Oi" (işləməsi Hoang Tran Luu), N.D. Thi - "Hanoian", E. Capua - "O Sole Mio" (sözləri Giovanni Capurro), "Xam Ha Thanh" oxuması və "Co Doi Thuong Ngan" oxuması-ifaları ilə sənətsevərlərə maraqlı gecə bəxş ediblər.

Vyetnam Milli Musiqi Akademiyasının direktor müavini, Xalq artisti Buy Konq Zyui AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində bildirib ki, Bakı, Azərbaycan haqqında çox eşidib, məlumatlar toplayıb. Lakin bu, onun ölkəmizə ilk səfəridir və vaxtilə eşitdiyi xoş xəbərlərin bu gün həqiqət olmasından sevinclidir. Xalq artistinin sözlərinə görə, keçmişdə olduğu kimi, bu gün də Bakıda Vyetnamdan tələbələr təhsil alırlar. Azərbaycanın incəsənət xadimlərinin dəfələrlə Vyetnamda geniş və maraqlı konsert proqramları ilə çıxış etdiyini xatırladan Milli Musiqi Akademiyasının direktor müavini sözlərinə onu da əlavə edib ki, Qəbələ Beynəlxalq Musiqi Festivalına dəvət almaları onlar üçün ikiqat sevindirici və qürurvericidir. Bu konsertdə folklor qrupunun, caz kollektivinin, eləcə də zərb alətləri qrupunun maraqlı çıxışının nəzərdə tutulduğunu bildirib. Vyetnam nümayəndə heyətinin rəhbəri onu da diqqətə çatdırıb ki, avqust ayının 1-də paytaxt Bakıda da geniş proqramla çıxış etmələri nəzərdə tutulur.

Konsert proqramına maraq və diqqət hər zamankı kimi böyükdür. Zalda respublikanın müxtəlif bölgələrindən, eləcə də xarici ölkələrdən Qəbələyə istirahətə gələnləri görmək olar. Bakı şəhər sakini Məhəmməd Verdizadə də onlardan biridir. Beynəlxalq Musiqi Festivalının açılışının möhtəşəm keçdiyini bildirən paytaxt sakini Vyetnam musiqiçilərinin də çıxışını yüksək qiymətləndirib.

Əlbəttə ki, yerli sakinlər arasında da Beynəlxalq Musiqi Festivalına maraq böyükdür. Qəbələ sakini Xədicə Cavadlı Vyetnam musiqi gecəsinə böyük həvəs və maraqla gəldiyini deyir. Belə ki, o, dəfələrlə radio və televiziya efirlərində Vyetnam musiqisini dinləyib və böyük zövq alıb.

Konsert proqramının sonunda Vyetnam musiqiçilərini ayaq üstə alqışlayan tamaşaçılar ifaçılara gül dəstələri hədiyyə edib, xatirə şəkli çəkdiriblər.

## BEYNƏLXALQ HƏYAT

# ABŞ yenidən İrandakı hədəfləri vurub

ABŞ yenidən İrandakı hədəflərə "kütləvi zərbə dalğaları" endirib və bunların Tehrandan gələn təhdidləri azaltmaq məqsədi daşıdığını bildirib.




ABŞ Silahlı Qüvvələri Mərkəzi Komandanlığının (CENTCOM) cümə axşamı yaydığı bəyanatda bildirilir ki, bu zərbələr regionda ABŞ qüvvələrinə raket hücumu cəhdinə cavab olaraq endirilib. CENTCOM iddia edir ki, hərbi komandanlıq mərkəzləri, raket qurğuları, dronlar və sahil mühafizəsi obyektləri də daxil olmaqla İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) onlarca obyekti vurulub. Komandanlıq bildirib ki, "zərbələrin məqsədi İran və müttəfiqlərinin ABŞ qüvvələrinə, kommersiya gəmiçiliyinə və qonşu Fars körfəzi ölkələrinə yaratdığı təhdidləri daha da azaltmaq idi".

CENTCOM həmçinin iyulun 28-də İİKK qüvvələrinin İrandan Yaxın Şərqdəki ABŞ qüvvələrinə bir neçə ballistik raket atdığını xatırladıb. Bəyanatda deyilir ki, bütün raketlər zərərsizləşdirilib. O da açıqlanıb ki, hazırda Yaxın Şərqdə 50 mindən çox ABŞ əsgəri yerləşdirilib.

# Pakistanda nəzarət məntəqəsinə hücum nəticəsində 15 nəfər həlak olub

Bir qrup silahlı Pakistanın şimalındakı Xayber Paxtunxva əyalətinin Hanqu rayonunda nəzarət məntəqəsinə hücum edib. Şiddətli atışmada 7 polis məmuru həlak olub. Daha 22 polis əməkdaşı müxtəlif dərəcələrdə yaralanıb.



Cavab atəşilə 8 ekstremist öldürülüb. "France 24" xəbər agentliyinin məlumatına görə, toqquşmalardan sonra təhlükəsizlik qüvvələri təmizləmə əməliyyatına başlayıb.

Hadisəyə görə heç bir mövcud ekstremist qrup məsuliyyəti öz üzərinə götürməyib. Hücum eyni əyalətin Tənk rayonunda baş verən daha bir böyük toqquşmadan bir neçə gün sonra edilib. Ötən cümə günü yaraqlılar nəzarət məntəqəsinə bomba yüklü maşın sürərək əsgərlər, polis və hökumət rəsmiləri də daxil olmaqla 15 nəfəri öldürmüşlər. Həmin əməliyyat zamanı təhlükəsizlik qüvvələri hücum edənlərdən 12-ni zərərsizləşdirməyə müvəffəq olmuşlar.

Əfqanıstanla həmsərhəd olan Xayber Paxtunxva əyalətində son zamanlar Tehrik-e-Taliban Pakistan yaraqlılarının fəallığı kəskin şəkildə artıb. İslamabad dəfələrlə terrorçu qrupların Əfqanıstan ərazisindən hücumlar planlaşdırmaq və həyata keçirmək üçün istifadə etdiyini açıqlayıb. Buna cavab olaraq Pakistan Əfqanıstandakı hədəflərə hava hücumları da daxil olmaqla güc tətbiq edib. Əfqanıstandakı Taliban hökuməti isə yaraqlılara təhlükəsiz sığınacaq vermək ittihamlarını qətiyyətlə rədd edir və bu cür hərəkətlərin yalnız vəziyyəti qeyri-sabitləşdirdiyini vurğulayır.

# Müqtəda ƏS-SƏDR: "İranın dəstəklədiyi qruplaşmalar İraqı müharibəyə sürükləyir"

İraqlı şiə lideri Müqtəda əs-Sədr ölkədəki iranpərəst hərbiləşdirilmlş qruplaşmaları "nəzarətsiz" və "təkəbbürlü" adlandırıb və onları İraqı perspektivsiz müharibəyə sürükləməyə çalışmaqda günahlandırıb.



Yerli medianın məlumatına görə, əs-Sədr İraqda fəaliyyət göstərən iranpərəst qüvvələrlə bağlı yazılı açıqlama verib. Vətənini "müqəddəs yerlər diyarı" və "şiəliyin mərkəzi" adlandıran əs-Sədr İraq ərazisinin İrana hücum etmək üçün istifadə edilmədiyini və buna görə də İslam İnqilabı Keşikçiləri Korpusunun İraqı hədəf almamalı olduğunu bildirib. İraqlı hərbiləşdirilmiş qruplaşmaların qonşu ölkələrə qarşı hərəkətlərinə də toxunan şiə lideri deyib: "Eynilə nəzarətsiz hərbiləşdirilmiş qruplaşmalar Ərəb körfəzi ölkələrindəki qardaşlarımıza müqəddəs torpaqlarımıza hücum etmək üçün bəhanə verməməlidir". Hər kəsin qardaşlıq və sülh ruhunda hərəkət etməli olduğunu vurğulayan əs-Sədr, ABŞ və İsrailin "qardaşları bir-birinə qarşı qoymağa çalışdığını" qeyd edib və bunun qarşısını almağa çağırıb: "Hansı ölkə və ya tərəfin törətməsindən asılı olmayaraq, İraqın müqəddəs torpaqlarına edilən hücumları pisləyirəm. Eyni zamanda İraqı faydasız müharibəyə sürükləməyə çalışan qüvvələrin hərəkətlərini pisləyirəm. İraq hökumətini təhlükəsizliyi təmin etməyə, suverenliyini gücləndirməyə, İraq xalqının və onların müqəddəs yerlərinin xeyrinə ciddi çalışmağa və alçaq məzhəb qərəzlərinə uymamağa çağırıram".

İraq xalqının "sülhə ehtiyacı olduğunu" vurğulayan əs-Sədr, "İraqın bütün resurslarını və şərəfini tükəndirən müharibələrin" heç vaxt təkrarlanmamalı olduğunu bəyan edib. "Yatmış" terrorçu qruplara qarşı ayıq-sayıq olmağa çağıran şiə lideri "onlar müqəddəs İraqın təhlükəsizliyini pozmaq üçün məzhəbçiliyi bəhanə kimi istifadə edəcəklər" deyib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycanın Qırmızı Kitabına daxil edilmiş Bürkut təbii yaşayış arealına qaytarılıb

İki ay əvvəl vətəndaş tərəfindən verilmiş məlumat əsasında Babək rayonu ərazisində yaralı vəziyyətdə tapılan Bürkut (qızılı qartal) Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərən Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının əməkdaşları tərəfindən mühafizəyə götürülərək baytar həkimin nəzarəti altında müalicə olunub.



AZƏRTAC müxbiri xəbər verir ki, aparılan müalicə tədbirləri nəticəsində tam sağalan qartal Zəngəzur Milli Parkının əməkdaşları tərəfindən Ləkətağ kəndi yaxınlığındakı Kola adlanan dağlıq ərazidə təbii yaşayış arealına qaytarılıb.

Qeyd edək ki, Bürkut (qızılı qartal) Naxçıvan Muxtar Respublikasının fauna aləminə məxsus, Azərbaycanın Qırmızı Kitabına daxil edilmiş nadir və xüsusi mühafizə olunan yırtıcı quş növlərindən biridir. Bu növün təbii yaşayış mühitində qorunması biomüxtəlifliyin mühafizəsi və ekoloji tarazlığın təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

# Paytaxtda hava əsasən yağmursuz olacaq, bəzi rayonlarda yağış yağacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 22-25, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 22-27, gündüz 34-38, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacağı ehtimal edilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri dosent Cahangir Qasımov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Əli Məmmədova və Sahib Məmmədova əzizləri

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3229
Sifariş 950

Qiyməti 60 qəpik